RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 46 (10066) 12 mart 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir

### Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta Azərbaycana rəsmi səfərə gəlib

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta ilə təkbətək görüşü olub. Əvvəlcə dövlətimizin başçısı İlham Əliyev və Antonio Koşta birgə foto çəkdirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı, sonra Avropa İttifaqı Şurasının prezidenti bəyanatlarla çıxış etdilər.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta ilə rəsmi nahar əsnasında geniş tərkibdə görüşü oldu.

2-3

## CƏNUBİ QAFQAZA YENİ YANAŞMANIN QURUCUSU



Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin gərgin və çoxcəhətli fəaliyyəti sayəsində Azərbaycan xarici siyasət sahəsində bir sıra uğur və nailiyyətlərə imza atdı.

Bütün bunların sayəsində ölkəmiz dünya birliyinə inteqrasiya edərək onun nüfuzlu üzvlərindən birinə çevrildi.

Qarşıya qoyulan hədəflərə çatmaqdan ötrü çətinliklərlə dolu uzun bir məsafə qət edildi.

Dövlət başçısı İlham Əliyevin bir sıra transmilli layihələrə həyat vəsiqəsi verməsi, xüsusən, "Cənub qaz dəhlizi" layihəsi reallaşdırılaraq ölkəmizin Avropa üçün etibarlı qaz təchizatçılarından birinə çevrilməsi, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin işə salınması, Bakıda beynəlxalq logistika mərkəzinin fəaliyyətə başlaması xüsusi qeyd edilməlidir.

44 günlük Zəfər müharibəsində möhtəşəm qələbə qazanaraq torpaqlarını işğaldan azad etməsi, daha sonra ölkənin ərazi bütövlüyünə və dövlət suverenliyinə nail olması xarici siyasət sahəsində daha qətiyyətli addımlar atılmasına imkan yaratdı.

* Artıq bəzi dövlətlərin Azərbaycana "Qarabağ kartı" ilə təsir və təzyiq göstərmək cəhdləri puça çıxarılmışdır.
* Artıq Azərbaycan yalnız öz maraqlarına əsaslanan siyasət yeridir, onunla təzyiq üslubunda danışmaq istəyənləri dərhal yerində oturdur, yalnız bərabərhüquqlu əməkdaşlığa üstünlük verir.

Müharibədən qələbə ilə çıxmasına, düşmənin kapitulyasiya aktını imzalayaraq bütün şərtlərimizi qəbul etməsinə baxmayaraq, ölkəmiz birinci olaraq sülh müqaviləsi bağlanması təşəbbüsünü irəli sürdü.

Müzəffər Ali Baş Komandan İlham Əliyev ikitərəfli danışıqlara üstünlük verərək hərbi qarşıdurmadan əməkdaşlığa keçmək zamanının çatdığını, yeni reallıqlara uyğun davranmağın vacibliyini də göstərdi.

Hərbdən sülhə və əməkdaşlığa keçid mərhələsində 8 avqust 2025-ci ildə Vaşinqtonda ABŞ Prezidenti D.Trampın şahidliyi və iştirakı ilə keçirilən Azərbaycan-Ermənistan danışıqlarının mühüm rolu və əhəmiyyəti oldu.

Dünyanın birnömrəli dövlətinin ofisində Azərbaycan ilə Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair saziş layihəsi paraflandı, habelə ATƏT-in Minsk qrupunun və "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin ləğvi ilə bağlı razılaşma oldu.

Eyni zamanda "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) yaradılması qərara alındı.

Daha bir mühüm yenilik isə Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün strateji işçi qrupunun yaradılması idi.

Adını çəkdiyimiz xartiya altı ay sonra - 10 fevral 2025-ci ildə Bakıda - Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti adından imzalandı.

Bu, həqiqətən də Azərbaycanla ABŞ arasında əməkdaşlığın yeni mərhələsinin başlanmasıdır!

5

## Vladimir Putin İlham Əliyevə minnətdarlığını bildirib



Martın 11-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Vladimir Putin Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində göstərilən operativ köməyə, həmçinin ölkəsinin İrana göndərdiyi humanitar yardımın Azərbaycan ərazisindən keçməsinə yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı liderlər Yaxın Şərqdə hərbi əməliyyatların tezliklə dayandırılmasının və münaqişənin siyasi-diplomatik yollarla həllinin vacibliyini vurğulayıblar.

Dövlət başçıları ikitərəfli gündəliyin aktual məsələlərini müzakirə ediblər. Strateji tərəfdaşlıq və müttəfiqlik prinsiplərinə uyğun olaraq Azərbaycanla Rusiya arasında qarşılıqlı fəaliyyətin müxtəlif sahələrdə gələcək inkişafında qarşılıqlı niyyət təsdiqlənib.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan-ABŞ strateji tərəfdaşlığı inkişaf mərhələsindədir

ABŞ-Azərbaycan arasında strateji tərəfdaşlığın yeni mərhələsinin əsasını qoyan bu cür görüşlər iqtisadi əməkdaşlığın gələcək inkişafı üçün yol xəritəsini müəyyənləşdirir. Yeni yanaşmanın detallarını və regional ticarət əlaqələrinə təsirini ABŞ Dövlət katibinin enerji və kritik minerallar üzrə köməkçisinin müavini Reqqi Sinxin fikirləri aydın şəkildə ortaya qoyur. Dövlət Departamentinin rəsmisi bildirib ki, Prezident Donald



Trampın Azərbaycanın dövlət başçısı İlham Əliyevlə avqustun 8-də keçirdiyi tarixi görüşlər və anlaşmalar sayəsində iki ölkə arasında münasibətlər ağlasığmaz səviyyədə dəyişib. O, Cənubi Qafqazda sülhün açarlarından birinin "Tramp marşrutu"nun yaradılması olduğunu vurğulayaraq, bu layihənin uzun müddət bağlı olan regional ticarət yollarını bərpa edəcəyini diqqətə çatdırıb. Sinxin bəyanatı regionda geosiyasi reallıqların köklü şəkildə dəyişdiyini və sülhün iqtisadi rifahın, ticarət yollarının açılmasının zəmanəti kimi çıxış etdiyini göstərir.

6

## Vətənə şərəfli xidmətin nümunəsi



Ulu Öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra həyata keçirilən hərbi quruculuq Daxili Qoşunların da tarixində yeni mərhələnin əsasını qoydu. Bu mənada, Daxili Qoşunların müasir tələblər əsasında inkişafı və peşəkar döyüş hazırlığına malik hərbi quruma çevrilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində Daxili Qoşunlar müasir maddi-texniki bazaya, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilmişdir. Atəşkəs dövründə Daxili Qoşunların xidməti fəaliyyəti ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasına, silahlı cinayətkarların zərərsizləşdirilməsinə, mühüm dövlət obyektlərinin mühafizəsinə yönəlmişdir. Onun təyinatından irəli gələn vəzifələrin icrası ilə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilmiş, xarici ölkələrin müvafiq qurumları ilə hərbi əməkdaşlıq əlaqələri qurulmuş, Daxili Qoşunların tərkibində Hərbi İnstitut, təlim mərkəzləri, helikopter eskadrilyası yaradılmışdır. 12 mart tarixinin Daxili Qoşunlar Günü kimi təsis edilməsi isə bu qurumun dövlət və xalq qarşısındakı xidmətlərinə verilən ali qiymətin təcəssümüdür.

7

## Xəzərdə də "Qarabağ"ımız var

İlkin hesablamalara görə, "Qarabağ" yatağında geoloji neft ehtiyatları 60 milyon tondan artıqdır. Bunun da 21 milyon ton nefti və 13 milyard kubmetr qazı çıxarıla bilən hesab olunur.

BP-nin SOCAR-dan (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Qarabağ" layihəsində 35 faizlik pay alması barədə müqavilə iki şirkət arasında keçən il iyunun 3-də Bakı Enerji Həftəsi çərçivəsində imzalanıb. Layihənin operatoru kimi BP çıxış edir.

Təsadüfi deyil ki, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli keçən həftə jurnalistlər üçün keçirdiyi brifinqdə bu layihə üzərində də xüsusi dayanıb. Belə ki, hazırda "Qarabağ"da ilk addım kimi dənizdibi sensor qovşaqlarla (OBN) tədqiqat daxil olmaqla seysmik tədqiqat proqramı həyata keçirilir. OBN tədqiqatının "Qarabağ" haqqında bilgiləri artıracağı, quyuların planlaş-



dırılmasına və yatağın işlənmə strategiyalarının optimallaşdırmasına kömək edəcəyi gözlənilir. OBN tədqiqatı 2025-ci ilin dekabrında başlayıb və təqribən 3 ay yarım davam edəcək. Yüksək və ultra yüksəkdəqiqlikli seysmik tədqiqatda isə əsas məqsəd quyu bütövlüyünə təsir göstərə biləcək geoloji riskləri, eləcə də platformanın və digər infrastrukturun təhlükəsiz şəkildə quraşdırılmasına maneə yaradan yeraltı təhlükələri müəyyənləşdirməkdir.

9

## Qlobal fikir ayrılıqlarının, ziddiyyətlərin aradan qaldırılması vacibdir

Prezident İlham Əliyevin uzaqgörən və davamlı siyasəti nəticəsində Azərbaycan bu gün sabitlik və təhlükəsizlik adasına çevrilib. Ölkəmiz siyasi-ictimai sabitliyi, dinamik iqtisadi inkişafı, uğurlu xarici siyasəti və sosial rifah səviyyəsi ilə beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Azərbaycanın nüfuzu getdikcə artmaqla yanaşı, ölkəmiz qlobal miqyasda sivilizasiyalararası dialoq və əməkdaşlığın mühüm platformasına çevrilməkdədir. Bu cür forumların Bakıda keçirilməsi Azərbaycanın bu sahədə oynadığı strateji rolu və beynəlxalq arenadakı mövqeyini bir daha təsdiqləyir.

7

◆ Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın Azərbaycana rəsmi səfəri

# Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir

## Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti ilə təkbətək görüşü



**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı İlham Əliyev və Antonio Koşta birgə foto çəkdirdilər.

## Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti ilə rəsmi nahar əsnasında geniş tərkibdə görüşü olub

**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta ilə rəsmi nahar əsnasında geniş tərkibdə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin



müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi. Xüsusilə təhlükəsizlik, enerji, nəqliyyat məsələləri üzrə dialoqun uğurla aparıldığı qeyd olundu. Bir müddət əvvəl Azərbaycanda keçirilmiş "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində iclaslara toxunuldu və bu çərçivədə aparılmış müzakirələrin önəmi vurğulandı.

Etibarlı tərəfdaş kimi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi xüsusi qeyd olundu, 10 Avropa ölkəsinə qaz ixrac etməsi bunun tərkib hissəsi kimi qiymətləndirildi.

Görüşdə həmçinin nəqliyyat, logistika və bağlantılar üzrə müzakirələr aparıldı, bu məsələlərdə Azərbaycanın regionda mühüm rol oynadığı bildirildi. Orta dəhlizin tərkib hissəsi kimi TRIPP layihəsinin önəmi vurğulandı. Bu layihənin davamı olan Naxçıvan dəmir yolu xəttinin bərpasında və yenidən qurulmasında Avropa İttifaqının iştirakına toxunuldu.

Azərbaycanla Avropa İttifaqı arasında güzəştli tarif prinsipləri əsasında ticarət əlaqələrinin genişləndirilməsinin perspektivləri ətrafında müzakirələr aparıldı.

Azərbaycanla Ermənistan arasında sülh gündəliyində əldə olunmuş nailiyyətlər xüsusi qeyd edildi, Avropa İttifaqının da sülh gündəliyinin irəli aparılmasına hər zaman töhfə verməyə hazır olduğu bildirildi.

Söhbət əsnasında Azərbaycan ilə Avropa İttifaqı arasında rəqəmsal transformasiya, süni intellekt, data mərkəzlərinin yaradılması sahələrində əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Görüşün sonunda Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın birgə mətbuat bəyanatı qəbul edildi.

## Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti mətbuata bəyanatlarla çıxış ediblər



**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta mətbuata bəyanatlarla çıxış ediblər.** AZƏRTAC **xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən Avropa İttifaqı Şurasının prezidentini salamlayıram. Cənab Prezident, Sizi qəbul etməkdən çox məmnunam. Ötən il iki dəfə görüşmüşük və çox yaxşı müzakirələrimiz olub. Yadınızdadırsa, mən Sizi Azərbaycana səfərə dəvət etdim. Dəvətimi qəbul etdiyinizə görə minnətdaram. Biz Sizin səfərinizə çox böyük önəm veririk. Əminəm ki, o, xüsusən də indiki dövrdə çox uğurla inkişaf edən ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm rol oyanacaq. Bizim çox fəal dialoqumuz var. Avropa Komissiyasının üzvləri ötən il və bu il dəfələrlə bizə səfər ediblər. Beləliklə, biz müxtəlif səviyyələrdə tərəfdaşlığın fəal mərhələsindəyik. Mən bəzi iqtisadi göstəricilərə nəzər saldım və gördüm ki, bu ilin yanvarında ticari dövriyyəmizin 50 faizi Avropa İttifaqı ilə bağlı olub. Ötən il dövriyyə bir az aşağı olmuşdur, lakin o, həqiqətən göstərir ki, Avropa İttifaqı bizim üçün birnömrəli ticari tərəfdaşdır. Əminəm ki, yeni layihələr və yeni investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq. Hazırda biz həmçinin Avropada fəal şəkildə sərmayə yatırırıq. Ticari dövriyyəmiz birmənalı olaraq artacaq. Tərəfdaşlığımızın mühüm hissəsi hər zaman enerji əməkdaşlığı olub, var və birmənalı olaraq olacaq. Bu, xüsusən də 2022-ci ildə Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında sənədi Avropa Komissiyası ilə imzaladığımızdan sonra müşahidə olunur.

Həmin vaxtdan etibarən biz həm həcm, həm də ölkələrin sayı baxımından Avropa ölkələrinə qaz ixracımızı artırmışıq. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qazı qəbul edir və ölkələrin ümumi sayı 16-ya çatıb. Bu göstəriciyə görə biz dünyada boru kəməri ilə qazı təchiz edən birnömrəli ölkəyik. On altı ölkə bu gün Azərbaycan qazını alır və beləliklə, bir çox ölkələrin enerji təhlükəsizliyində oynadığımız rol artır.

Bizim üçün Avropa bazarı artım potensialına malik ümumi qaz ixracımızın yarısını təşkil edir. Elə bu ayın əvvəlində, biz "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının illik toplantısını keçirdik və bu tədbirə Azərbaycan və Avropa Komissiyası evsahibliyi edir. Orada öz nitqimdə mən auditoriyanı məlumatlandırdım ki, biz bu il qaz hasilatını artırmağı planlaşdırırıq. Biz qazı yeni yataqda hasil etməyə başlayacağıq. Bu gündən etibarən növbəti iki və ya üç il ərzində, - əgər hər şey cədvələ uyğun gedərsə, - bizim bugünkü həcmlə müqayisədə minimum 10 milyard kubmetr əlavə qazımız olacaq.

Enerji sahəsində əməkdaşlığımızın digər istiqaməti bərpaolunan enerji ilə bağlıdır ki, onun da böyük potensialı var. Biz külək, Günəş və su elektrik enerjisinə böyük sərmayələr yatırırıq. Planımız beş və ya altı il ərzində ixraca hazır olan 6-8 giqavatlıq bərpaolunan enerjiyə malik olmaqdır. Bir sözlə, hazırda biz Avropa tərəfdaşları ilə ötürülmə xətləri, dəniz dibi kabelləri, enerji infrastrukturunun digər fərqli hissələri üzərində çalışırıq.

Bu gün gəldiyiniz zaman hər ikimiz Bakıda çox günəşli havanı qeyd etdik. Bahar gəlir. Əslində, düşünürəm ki, bizim burada 300-dən çox günəşli günümüz olur və ola bilsin, küləkli günlər daha çoxdur. Təsəvvür edə bilərsiniz ki, külək və Günəş enerjisinin burada böyük potensialı var. Əlbəttə, biz daha sıx işləməyə çalışırıq, çünki Avropa qitəsinə daxil olmazdan əvvəl, siz bütün tranzit razılaşmaların icrası məqsədilə bir çox ölkələrlə işləməlisiniz. Təbii ki, xüsusi olaraq, Ermənistanla paraflanmış sülh sazişinə nail olduqdan sonra daşımalar ikitərəfli gündəliyimizin mühüm hissəsidir. Orta dəhlizin genişlənməsi üçün yeni imkanların açılması, təbii ki, nikbinliyimizi artırır. Cənab prezidentə söylədiyim kimi, biz cəmi yeddi aydır ki, sülh şəraitində yaşayırıq. Müstəqilliyimiz hələ 1991-ci ildə bərpa olunub. Bununla belə, cəmi yeddi aydır ki, sülhdə yaşayırıq. Lakin biz bunun faydasını artıq hiss edirik və əminəm ki, Ermənistanla sülh daimi olacaq. Biz həmçinin ticarətə başlamışıq. Ermənistana mühüm neft məhsullarının təchizatına başlamışıq. Digər ölkələrdən Azərbaycan ərazisi vasitəsilə Ermənistana gedən yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırmışıq. Bu isə bir daha güclü siyasi iradəmizi göstərir, çünki biz sülhə təkcə iki ölkənin parafladığı sənəd üzərində deyil, həmçinin əyani şəkildə nail oluruq. Bu, həmçinin ona görə vacibdir ki, bəzən sənədlər uzun müddət ərzində elə kağız kimi qalır. Bizə gəldikdə, 2023-cü ilin sentyabrından Ermənistanla son qanlı hərbi toqquşmadan 2025-ci ilin avqustunda sülhə nail olmağımızdan iki ildən az vaxt keçir. Düşünürəm ki, əgər hər iki tərəf siyasi iradəni və sülhə sadiqliyini nümayiş etdirərsə, bu, dövlətlərin və xalqların barışığına dəlalət edən ən yaxşı göstəricidir. Sülhdən yaxşı heç nə ola bilməz. İnanın mənə, müharibə şəraitində yaşamağın və ya müharibə etməyin nə olduğunu bilirik. Ona görə bizim kimi ölkələr, ola bilsin, sülhü hər hansı digər ölkədən daha çox dəyərləndirir. Bir sözlə, gündəliyimiz, həqiqətən, çox genişdir. Biz, əlbəttə, sərhədlərimizə yaxın bölgədə təhlükəsizlik məsələlərini müzakirə etdik. Biz bu gün sonra söhbətimizi davam etdirəcəyik. Bizimlə olduğunuza görə, cənab prezident, bir daha təşəkkür edir, Sizə xoş səfər arzulayıram.

❖ ❖ ❖

Sonra Avropa İttifaqı Şurasının prezidenti bəyanatla çıxış etdi.

### Prezident Antonio Koştanın bəyanatı

- Günortanız xeyir. İlk növbədə burada Bakıda olmaqdan məmnunam. Prezident Əliyev, xüsusilə regionda geosiyasi vəziyyətin sürətlə dəyişməsi kimi mürəkkəb şəraitdə dəvətinizə və səmimi qarşılamanıza görə Sizə təşəkkür edirəm.

Mən Avropa İttifaqının Azərbaycan xalqı ilə tam həmrəyliyini ifadə etmək istərdim. İcazə verin, Avropa vətəndaşlarının İrandan təhlükəsiz şəkildə öz ölkələrinə qayıtmasına şərait yaratdığı üçün Azərbaycanın göstərdiyi yardıma görə səmimi minnətdarlığımı çatdırım. Azərbaycan Respublikası Avropa İttifaqının əsas tərəfdaşıdır. Ötən bir il ərzində biz münasibətlərimizi yenidən canlandırmışıq. Bugünkü görüş bizim xüsusilə təhlükəsizlik, enerji, rəqəmsal və nəqliyyat sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsinə olan birgə öhdəliyimizin bariz əlamətidir. Təhlükəsizlik və insan haqları da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam şəkildə istifadə etmək məqsədilə hazırda biz Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq üçün yeni çərçivə üzərində işləyirik. Bu, bizim gələcəyə birgə baxışımıza dair güclü siqnal verir. Biz həmçinin müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığımızı dərinləşdirmək üçün yollar araşdırırıq.

Prezident Əliyevin söylədiyi kimi, enerji təhlükəsizliyi ikitərəfli əməkdaşlığımızın təməlini təşkil edir. Dörd il bundan əvvəl Versalda Avropa İttifaqı Şurası qaz, neft və kömürün təchizatı mənbələrinin şaxələndirilməsinə dair qərar qəbul etdi. Azərbaycan "Cənub qaz dəhlizi" sayəsində bu səylərdə həlledici rol oynadı. Bu gün nəticə göz qabağındadır. İrandakı müharibənin qlobal enerji bazarlarını sarsıtdığı bir vaxtda bizim enerji sahəsində hazırkı tərəfdaşlığımız heç zaman olmadığı kimi daha əhəmiyyətlidir. Avropa İttifaqı Azərbaycanın enerji keçidini dəstəkləmək üçün özəl investisiyaları və maliyyələşməni səfərbər etməyə hazırdır. Biz həmçinin Avropanın təmiz texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlərini sizin geniş planınızda daha fəal iştirak etməyə çağırırıq.

Daşımalar bizim əməkdaşlığımızın başqa bir mühüm sahəsidir. Orta dəhlizin inkişafı yeni nəqliyyat bağlantıları üçün strateji fürsətdir. Bakı-Naxçıvan dəmir yolu əlaqəsinin tamamlanması bu mənada böyük əhəmiyyət kəsb edəcək. Avropa ilə Asiya arasında ticarət dayanıqlılığını gücləndirməklə biz iş yerləri yarada, artımı stimullaşdıra və iqtisadiyyatlarımızı birlikdə gücləndirə bilərik. Avropa İttifaqı Azərbaycanın dinc, sabit, qarşılıqlı əlaqələrə əsaslanan və çiçəklənən Cənubi Qafqaz hədəfini bölüşür. Ermənistanla sülh prosesində əldə edilən irəliləyiş tarixi əhəmiyyət kəsb edir.

Vaşinqton razılaşmaları sizin dialoq və barışığa sadiqliyinizi əks etdirir. Avropa İttifaqı bu razılaşmaların həyata keçirilməsinin dəstəklənməsində sizin yanınızdadır.

Biz həqiqi sülhün təkcə siyasi razılaşmalar, Sizin dediyiniz kimi, kağız üzərində yox, insanların gündəlik həyatları, iqtisadi-ticari əlaqələr və ortaq rifah üzərində qurulduğunu bilirik. Qarşılıqlı iqtisadi asılılığın gücləndirilməsi uzunmüddətli sabitliyə aparan birmənalı yoldur və Avropa İttifaqı hamının faydası üçün bu imkanlardan yararlanmağa kömək etməyə hazırdır. Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir. Mən İranda və Yaxın Şərqdə baş verən, sizə çatmış təhlükəli hərbi eskalasiya fonunda üzləşdiyiniz çağırışları bilirəm. İcazə verin, bir daha Avropa İttifaqı adından Azərbaycan və onun xalqı ilə tam həmrəy olduğumuzu ifadə edim.

Biz bu yaxınlarda İran tərəfindən Naxçıvan hava limanına edilmiş hücumu qətiyyətlə pisləyirik. Regional sabitliyi və təhlükəsizliyi Beynəlxalq Millətlər Təşkilatının və beynəlxalq hüququn prinsiplərinə tam riayət edərək qorumaq zəruridir. Avropa İttifaqı bütün gərginliyi azaltmaq və vətəndaşları qorumaq üçün dialoq və diplomatiya vasitəsilə bütün tərəfdaşlarla işləməyə sadiqdir. Vəziyyətin daha da kəskinləşməsi təkcə Yaxın Şərqi deyil, Avropanı və daha geniş dünyanı təhlükə altına atır.

Bununla belə, cərəyan edən son hadisələr beynəlxalq hüquqa zidd olaraq zorakı fəaliyyətin narahatedici tendensiyasını bildirir. Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsi artıq beşinci ildir ki, davam edir. Bu müharibə Avropa üçün ekzistensial təhlükə olaraq qalır və qlobal miqyasda vəziyyəti poza biləcək amildir.

Qlobal sabitsizlik fonunda aramızdakı əlaqələri gücləndirmək heç zaman olmadığı qədər vacibdir. Biz 2028-ci ildə Azərbaycanın Avropa Siyasi Birliyinin Zirvə Görüşünə evsahibliyi etməsini səbirsizliklə gözləyirik.

Sonda icazə verin, bir daha vurğulayım ki, Avropa İttifaqı bu günün çağırışlarını sabahın fürsətlərinə çevirmək üçün Azərbaycanla işləməyə sadiqdir. Sizin rəhbərliyiniz zəruridir və bizim tərəfdaşlığımız güclüdür. Biz onu xalqlarımızın rifahı naminə birlikdə daha da genişləndirə bilərik.

Növbəti aylarda Sizi Brüsseldə qəbul edəcəyimə ümid edirəm.

Çox sağ olun, cənab Prezident.

◆ Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycana rəsmi səfəri

# Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın birgə mətbuat bəyanatı

1. 2026-cı il martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta Azərbaycan Respublikasında, Bakıda görüşmüşlər.

2. Prezidentlər Azərbaycan-Avropa İttifaqı (Aİ) tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayaraq, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqliklərini ifadə ediblər. Bu əməkdaşlıq hər iki tərəfin ortaq maraqlarını əks etdirir, bütün Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin, daşımaların və davamlı inkişafın təşviqinə töhfə verir.

3. Onlar Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı münasibətlərin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyü də daxil olmaqla, beynəlxalq hüquqa tam hörmətlə yanaşılmaqla qarşılıqlı hörmət, bərabərlik və ortaq fayda əsasında qurulduğunu bir daha təsdiq ediblər.

4. Prezidentlər münasibətlərin daha da inkişaf etdirilməsi üçün möhkəm hüquqi çərçivə yaradacaq yeni əhatəli ikitərəfli saziş üzrə danışıqların tez bir zamanda yekunlaşdırılmasına sadiqliklərini bir daha vurğulayıblar. Onlar həmçinin yenilənmiş Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetlərinin qəbul edilməsinin və bütün sahələrdə ikitərəfli gündəliyi daha da irəli aparmaq üçün Azərbaycan-Aİ Əməkdaşlıq Şurası da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam istifadənin vacibliyini qeyd ediblər.

5. Prezidentlər ayırıcı xətlərdən azad, dinc, sabit, qarşılıqlı əlaqəli və inkişaf edən Cənubi Qafqaz kimi ortaq strateji məqsədi bir daha təsdiqləyərək, regionda baş verən son müsbət hadisələri, xüsusilə də Azərbaycan-Ermənistan sülh prosesindəki tarixi irəliləyişi alqışlayıblar. Onlar 2025-ci il 8 avqust tarixli Vaşinqton Zirvə Görüşünün nəticələrini və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan sonrakı addımları yüksək qiymətləndiriblər. Avropa İttifaqı Şurasının prezidenti iki ölkənin ikitərəfli dialoq vasitəsilə regionda davamlı sülhə nail olmaq istiqamətində səylərini Aİ-nin tam dəstəklədiyini bir daha təsdiqləyib.

6. Prezidentlər Azərbaycanın münaqişədən sonrakı dövrdə Qarabağ və Şərqi Zəngəzur bölgələrində genişmiqyaslı yenidənqurma və inkişaf səylərini vurğulayıblar. Çətinliklərin, xüsusilə də mina ilə çirklənmənin miqyasını qeyd edərək, onlar Avropa İttifaqının humanitar minatəmizləmə sahəsində aparıcı beynəlxalq donor olduğunu vurğulayıb, beynəlxalq dəstəyin artırılmasına çağırış ediblər.

7. Prezidentlər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in həyata keçirilməsinin ticarət, daşımalar, sərmayə, iqtisadi dayanıqlılıq və təmiz enerji daxil olmaqla, müvafiq prioritet sahələrdə Azərbaycan-Aİ əməkdaşlığını genişləndirmək üçün imkanlar yaratdığını qeyd ediblər.

8. Prezidentlər Azərbaycanın regional daşımalarda, xüsusilə də Orta dəhliz vasitəsilə Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında nəqliyyat, ticarət, enerji və rəqəmsallaşma sahələrində əlaqələrin gücləndirilməsində oynadığı aparıcı rolu vurğulayıblar. Avropa İttifaqı "Qlobal Qapı" çərçivəsində daşımalar, digər müvafiq mexanizmlər, o cümlədən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında dəmir yolunun müasirləşdirilməsinə dəstək, həmçinin TRIPP-ın icrası üzrə davam edən səylərlə bağlı Azərbaycanla əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyib. Onlar "Qlobal Qapı" təşəbbüsü çərçivəsində Azərbaycan-Aİ iqtisadi əməkdaşlığını və sərmayələrini gücləndirmək üçün İqtisadi Əməkdaşlıq üzrə Yüksəksəviyyəli İşçi Qrupunun yaradılmasını alqışlayıblar.

9. Prezidentlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq, Avropanın enerji təchizatının şaxələndirilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu etiraf ediblər və 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun davamlı icrasına sadiqliklərini bildiriblər. Onlar "Cənub Qaz Dəhlizi" və "Yaşıl Enerji" Məşvərət Şurasının əhəmiyyətini, külək və Günəş enerjisi də daxil olmaqla, bərpaolunan enerji mənbələri sahəsində enerji əməkdaşlığının genişləndirilməsi potensialını, həmçinin Qara dəniz sualtı kabeli layihəsi kimi qarşılıqlı elektrik enerjisi bağlantısı təşəbbüslərini qeyd ediblər.

10. Prezidentlər 2024-cü ilin noyabr ayında Azərbaycan Respublikasının sədrliyi ilə Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasının (COP29) uğurlu nəticələrini alqışlayaraq, iqlim dəyişmələri və ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlığı möhkəmləndirməyə hazır olduqlarını bir daha təsdiqləyibilər.

11. Prezidentlər 2026-cı ilin may ayında keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına Azərbaycanın evsahibliyi etməsini davamlı şəhərsalma və dayanıqlı şəhər inkişafı üzrə qlobal səylərə əhəmiyyətli töhfə kimi alqışlayıblar və bu forumdan müvafiq sahələrdə Azərbaycan-Aİ əməkdaşlığını dərinləşdirmək üçün istifadə etməyə hazır olduqlarını bildiriblər.

12. Prezidentlər mütəşəkkil cinayətkarlıq, terrorçuluq, ekstremizm, silah və narkotiklərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, insan alveri və qeyri-düzgün miqrasiya kimi ortaya çıxan təhdidlərin qarşısını almaq məqsədilə müdafiə və təhlükəsizlik sahələrində daha sıx əməkdaşlığın faydasını vurğulayıblar.

13. Prezidentlər rəqəmsal transformasiya və innovasiya sahələrində əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd ediblər. Onlar süni intellekt və inkişaf etməkdə olan digər texnologiyaların artan əhəmiyyətini etiraf ediblər, innovasiyanı, iqtisadi dayanıqlılığı və inkişafı gücləndirmək, həmçinin davamlı və artıma yönəlmiş rəqəmsal ekosistemləri təşviq etmək məqsədilə bu sahədə əməkdaşlığı gücləndirməyə hazır olduqlarını bildiriblər.

14. Prezidentlər səfərlərin artırılması da daxil olmaqla, insanlar arasında təmasların vacibliyini bir daha təsdiq ediblər. Onlar qarşılıqlı səyahətləri daha da asanlaşdırmaq məqsədilə Viza Sadələşdirilməsi Sazişinin davamlı icrasını alqışlayıblar, təhsil, mədəniyyət, gənclər və tədqiqat sahələrində əməkdaşlığın gücləndirilməsinə sadiqliklərini bildiriblər.

15. Liderlər İranda və Ukraynada baş verən son hadisələr də daxil olmaqla, əsas cari geosiyasi məsələləri müzakirə ediblər.

## Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycanda rəsmi səfərdə olan Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta martın 11-də Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən A.Koştaya Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta martın 11-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının və Avropa İttifaqının bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanı Baş nazirin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.



## "Diplomatik xidmətə qəbul üzrə müsabiqənin keçirilməsi Qaydaları"nın və "Diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədlərinin müsahibədən əvvəl yoxlanılması Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Diplomatik xidmətə qəbul üzrə müsabiqənin keçirilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədlərinin müsahibədən əvvəl yoxlanılması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2026-cı il*

*Fərmanın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## "Fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri alan diplomatik xidmət əməkdaşlarına verilən vəsiqənin nümunəsi"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri alan diplomatik xidmət əməkdaşlarına verilən vəsiqənin nümunəsi" təsdiq edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2026-cı il*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 11 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir

### Fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri alan diplomatik xidmət əməkdaşlarına verilən vəsiqənin Nümunəsi




## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan ərazisinin İran ərazisindən pilotsuz uçuş aparatları ilə hədəfə alınması və bunun nəticəsində hava məkanınızın pozulması barədə xəbərləri narahatlıqla izlədik. Bu, beynəlxalq hüququn prinsiplərinin və dövlətlərin suverenliyinə hörmət qaydalarının açıq şəkildə pozulmasıdır.

Sudan Respublikasının rəhbərliyi, hökuməti və xalqı adından qardaş Azərbaycan Respublikası ilə tam həmrəyliyimizi ifadə edir, ölkənizin suverenliyini, təhlükəsizliyini və sabitliyini qorumaq üçün atdığınız bütün qanuni addımları dəstəklədiyimizi bildiririk.

Uca Allahdan Azərbaycan Respublikasını qorumasını, ona təhlükəsizlik və sabitlik bəxş etməsini diləyirik.

Zati-alinizə ən yüksək ehtiramımızı və hörmətimizi bildiririk.

***Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan,***
***Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri***

## Xarici İşlər Nazirliyində

Martın 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qlobal Bakı Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi və İslamofobia ilə mübarizə üzrə xüsusi elçisi Migel Angel Moratinos ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan və BMT-nin Sivilizasiyalar Alyansı arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, birgə həyata keçirilən layihələrin davam etdirilməsi və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

Tərəflər Azərbaycan ilə BMT-nin Sivilizasiyalar Alyansı arasında mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi sahəsində mövcud əməkdaşlığın mühüm rolunu qeyd ediblər. Azərbaycanın Bakı Prosesi çərçivəsində və digər beynəlxalq təşəbbüslər vasitəsilə mədəniyyətlərarası dialoqa verdiyi töhfənin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə regional vəziyyət, Azərbaycanın sülh səyləri və Ermənistanla sülh prosesi barədə qarşı tərəfə məlumat verib.

Ali nümayəndə Migel Angel Moratinos Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsində beynəlxalq səviyyədə apardığı fəal və ardıcıl siyasəti yüksək qiymətləndirib. O, Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığının bundan sonra da uğurla həyata keçirilməsinin vacibliyini vurğulayıb və birgə təşəbbüslərin gələcəkdə də davam etdirilməsinə dəstəyini ifadə edib.

Tərəflər daha sonra Yaxın Şərqdə artan hərbi eskalasiyadan irəli gələn məsələləri müzakirə edib, mövcud vəziyyətdən narahatlıqlarını ifadə ediblər.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər, o cümlədən qlobal çağırışlar qarşısında mədəniyyətlərarası həmrəyliyin təşviqi, islamofobiya ilə mübarizə sahəsində birgə fəaliyyət imkanları barədə fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖

Martın 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov 13-cü Qlobal Bakı Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Rebeka Qrinspan ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan və BMT əməkdaşlığının müxtəlif aspektləri və perspektivləri, eləcə də regional və beynəlxalq məsələlər, Yaxın Şərqdə vəziyyət və müharibənin qlobal iqtisadiyyata və ticarətə təsirləri müzakirə olunub.

Görüşdə ölkəmizin qlobal və regional enerji təhlükəsizliyində, ticarətdə, investisiyalarda, dayanıqlı inkişafda, iqtisadi şaxələndirmədə, kommunikasiya və nəqliyyat istiqamətində həyata keçirdiyi təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın regional və qlobal ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat-logistika imkanlarının artırılması, ənənəvi və alternativ enerji layihələri və beynəlxalq ticarət marşrutlarının inkişafı istiqamətində həyata keçirilən siyasət barədə məlumat verib.

Bu çərçivədə ölkəmizin tranzit və logistika mərkəzi kimi rolunun gücləndirilməsi, həmçinin Orta dəhliz çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Tərəflər həmçinin Yaxın Şərqdə artan gərginliyin və müharibənin doğurduğu fəsadları nəzərdən keçirib, mövcud vəziyyətdən narahatlıqlarını ifadə ediblər.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Əli Əsədov Beynəlxalq Kanoe Federasiyasının və Avropa Kanoe Assosiasiyasının prezidentləri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 11-də ölkəmizdə səfərdə olan Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konietzko və Avropa Kanoe Assosiasiyasının prezidenti Jan Zunqrana ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı idmanın inkişafının Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğu diqqətə çatdırılıb. Ölkəmizdə su idman növlərinin, xüsusilə avarçəkmənin inkişafı məqsədilə görülən işlər barədə məlumat verilib.

Səfər çərçivəsində Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası ilə Avropa Kanoe Assosiasiyası arasında imzalanacaq Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Qonaqlar Azərbaycanda idmanın inkişafı istiqamətində həyata keçirilən tədbirlərin, eləcə də avarçəkmə üçün yaradılan əlverişli şəraitin onlarda böyük təəssürat yaratdığını bildiriblər.

# Baş nazir Kosta Rikanın Birinci vitse-prezidenti ilə görüşüb

**Baş nazir Əli Əsədov martın 11-də Azərbaycanda səfərdə olan Kosta Rika Respublikasının Birinci vitse-prezidenti Fransisko Qamboa ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı F.Qamboanın 13-cü Qlobal Bakı Forumunda iştirakının əhəmiyyəti vurğulanıb.

Dünyada artan gərginlik və mürəkkəb geosiyasi proseslər fonunda forumun dialoqun təşviqi, qarşılıqlı etimadın möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından mühüm platforma rolunu oynadığı bildirilib.

Həmçinin Azərbaycan-Kosta Rika əlaqələrinin iqtisadi, investisiya, "yaşıl enerji", humanitar və digər sahələrdə inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə BMT-nin Ticarət və İnkişaf Konfransının Baş katibi Rebeka Qrinspan da iştirak edib.

# Timor-Leste Prezidenti Azərbaycana səfərə gəlib



**Timor-Leste Demokratik Respublikasının Prezidenti Jose Ramos-Horta martın 11-də Azərbaycan Respublikasına səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

# Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Azərbaycana səfərə gəlib



**Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç martın 11-də Azərbaycan Respublikasına səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

# Meksika səfiri ilə görüş

**Martın 11-də Dövlət Gömrük Komitəsində Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Viktoriya Romero ilə görüş keçirilib.**



Görüşdə iki ölkənin gömrük orqanları arasındakı münasibətlərdən, əməkdaşlığın perspektivlərindən bəhs edilib, "Azərbaycan Respublikası Hökuməti ilə Meksika Birləşmiş Ştatları Hökuməti arasında gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı inzibati yardım haqqında" Sazişin qısa zaman ərzində imzalanmasının əhəmiyyəti vurğulanıb. Sözügedən sazişin iki ölkənin gömrük qurumları arasında institusional əlaqələrin möhkəmlənməsi ilə yanaşı, iqtisadi münasibətlərin və ticarətin genişlənməsinə də mühüm töhfə verəcəyi bildirilib.

Görüş zamanı gömrük işi sahəsində müxtəlif istiqamətlərdə təcrübə mübadiləsinin aparılması, birgə təşəbbüslər və layihələr üzərində əməkdaşlığın qurulması imkanları müzakirə olunub.

# Baş prokuror vətəndaşların müraciətlərini dinləyib

**Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, martın 11-də baş prokuror Kamran Əliyev Bakı şəhəri Sabunçu Rayon Prokurorluğunun inzibati binasında Sabunçu rayonundan olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 20 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



# Milli Məclisdə süni intellektin kənd təsərrüfatında tətbiqi müzakirə olunub

**Martın 11-də parlamentdə Milli Məclisin Aqrar siyasət komitəsinin təşkilatçılığı ilə "Kənd təsərrüfatında süni intellektin tətbiqi: nəticələr və perspektivlər" mövzusunda ictimai dinləmə keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Komitə sədri bildirib ki, cari il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən və "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə ölkədə rəqəmsal inkişafın yeni mərhələyə qədəm qoyduğunu göstərir. Həmin müşavirədə rəqəmsal idarəetmə sistemlərinin təkmilləşdirilməsinə, süni intellekt texnologiyalarının geniş tətbiqinə və dövlət xidmətlərinin daha effektiv təşkilinə dair mühüm vəzifələr müəyyənləşdirilib. Bu proseslər aqrar sektorun da rəqəmsal transformasiyasına güclü təkan verir və kənd təsərrüfatında süni intellekt texnologiyalarının tətbiqi məhsuldarlığın artırılmasına, resurslardan səmərəli istifadəyə və aqrar idarəetmənin daha effektiv təşkilinə geniş imkanlar yaradır.

Tahir Rzayev bildirib ki, ictimai dinləmənin keçirilməsinin məqsədi də bu sahədə mövcud vəziyyəti, əldə olunan nəticələri və qarşıda duran vəzifələri müzakirə etmək, mütəxəssislərin, alimlərin və aidiyyəti qurumların təkliflərini dinləməkdir.

Tədbirdə kənd təsərrüfatı naziri Məcnun Məmmədov diqqətə çatdırıb ki, son illərdə Azərbaycanda aqrar sahədə rəqəmsal transformasiya istiqamətində mühüm layihələr həyata keçirilir, elektron kənd təsərrüfatı informasiya sistemi təkmilləşdirilir, fermerlərin müasir texnologiyalara çıxış imkanları genişləndirilir. O vurğulayıb ki, süni intellekt əsaslı həllərin tətbiqi torpaq və bitki monitorinqi, məhsuldarlığın proqnozlaşdırılması, suvarma və digər aqrotexniki proseslərin daha səmərəli idarə olunmasına xidmət edir.

Nazir qeyd edib ki, Kənd Təsərrüfatı Nazirliyi aqrar sahədə genişmiqyaslı rəqəmsal transformasiyanın artıq ikinci mərhələsini həyata keçirir. O bildirib ki, Aqrar Süni İntellekt layihəsi çərçivəsində aqrar sahədə qərarverməni daha dəqiq və məlumatəsaslı etmək məqsədilə 30-dan artıq süni intellekt modulu müəyyən edilib. Bu modullar torpaq, iqlim, peyk məlumatları, sahə müşahidələri və digər mənbələri birləşdirərək həm dövlətin strateji idarəçiliyinə, həm də fermer təsərrüfatlarında qərarverməyə dəstək verir. Beləliklə, aqrar idarəetmə modeli ənənəvi təcrübə yanaşmasından məlumat əsaslı və proqnozlaşdırılan qərarvermə modelinə keçir.

Sonra Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Süni İntellekt layihəsinin rəhbəri Surxay Novruzov bu layihə ilə bağlı slaydlarla müşayiət olunan təqdimatla çıxış edib. O vurğulayıb ki, süni intellekt əsaslı həllərin tətbiqi vasitəsilə bitkilərin inkişafı, xəstəlik və zərərverici riskləri, torpaq xüsusiyyətləri, suvarma ehtiyacları və məhsuldarlıq proqnozları üzrə analitik məlumatlar formalaşdırılır və vahid rəqəmsal platformada emal olunaraq fermerlərə mobil tətbiqlər və digər kommunikasiya kanalları vasitəsilə çatdırılır.

Sonra dinləmədə mövzu ətrafında aparılan müzakirələrdə Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, İntizam komissiyasının sədri Eldar İbrahimov, Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə, Aqrar siyasət komitəsinin sədr müavini Razi Nurullayev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov, deputatlar Vüqar İskəndərov, Zaur Şükürov, Vüqar Bayramov, Elman Nəsirov, Aydın Hüseynov, Naqif Həmzəyev, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov, Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini Zəkiyyə Mustafayeva çıxış ediblər. Qeyd olunub ki, rəqəmsal texnologiyalar, avtomatlaşdırma və süni intellekt artıq aqrar sektorun inkişafında mühüm rol oynayan əsas amillərdən birinə çevriliblər. Onlar bu sahədə süni intellekt üzrə mütəxəssislərin yetişdirilməsi, aqrar sektorda ixtisaslı kadrların hazırlanması, elmi tədqiqatların və ali təhsil müəssisələrinin fəaliyyətinin gücləndirilməsi, fermerlərin informasiya sistemlərinə və rəqəmsal xidmətlərə çıxışının genişləndirilməsi, kənd təsərrüfatında yeni texnologiyalardan istifadənin stimullaşdırılması kimi məsələlərlə bağlı fikir və təkliflərini səsləndiriblər.

Sonra kənd təsərrüfatı naziri Məcnun Məmmədov tədbirdə səsləndirilən fikirlərə münasibətini bildirib.

İctimai dinləməyə yekun vuran komitə sədri Tahir Rzayev çıxışlardakı fikirlərin kənd təsərrüfatında süni intellekt texnologiyalarının tətbiqinin genişləndirilməsinə və fermerlərin fəaliyyətinin daha effektiv təşkilinə xidmət edəcəyinə əminliyini bildirib. Komitə sədri vurğulayıb ki, dövlət tərəfindən bu sahəyə göstərilən dəstək və müasir texnologiyaların tətbiqi ölkəmizin ərzaq təhlükəsizliyini daha da möhkəmləndirəcək.

*"Azərbaycan"*

# Qubada üç yaşayış məntəqəsinin adlarının dəyişdirilməsi təklif olunur



**Martın 11-də Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya Komissiyasının iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda komissiyanın sədri İsa Həbibbəyli bildirib ki, gündəliyə Quba rayonunun inzibati ərazi dairəsinin tərkibinə daxil olan yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi ilə bağlı məsələ daxil edilib.**

Bildirilib ki, ölkə ərazisində vaxtilə süni şəkildə dəyişdirilmiş, müxtəlif dövrlərdə məkirli məqsədlərlə saxtalaşdırılmış 40-dan artıq yer adı Toponimiya Komissiyası tərəfindən bərpa edilib. Qeyd olunub ki, aparılan dəyişikliklər Azərbaycanın milli maraqlarına və dövlətçilik mənafeyinə uyğun şəkildə həyata keçirilib, tarixi və milli toponimlərin qorunmasına və bərpasına xidmət edib.

Komissiya sədri müzakirəyə çıxarılan məsələnin mahiyyətindən bəhs edərək, Quba rayonunun inzibati ərazi dairəsinin tərkibinə daxil olan kəndlərin adlarının dəyişdirilməsi ilə bağlı Quba Rayon İcra Hakimiyyətindən müraciət daxil olduğunu söyləyib. O qeyd edib ki, müraciətə əsasən Vladimirovka, Alekseyevka və Timiryazev yaşayış məntəqələrinin adlarının dəyişdirilərək müvafiq olaraq, "Elbir", "Çinarlı" və "Bəhrəli" adlandırılması təklif olunur.

Məsələ ətrafında aparılan müzakirələrdə Toponimiya Komissiyasının sədr müavini, parlamentin komitə sədri Musa Quliyev, komissiyanın üzvləri - parlamentin komitə sədri Anar İsgəndərov, deputatlar Hikmət Məmmədov, Elnarə Akimova, Əziz Ələkbərov, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Toponimiya şöbəsinin müdiri Elçin İsmayılov, Azərbaycan Atatürk Mərkəzinin direktoru Nizami Cəfərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru Mahirə Hüseynova, xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri Möhsün Nağısoylu çıxış edərək qeyd və təklflərini səsləndiriblər.

İclasda Quba rayonunun inzibat ərazi dairəsinin tərkibinə daxil olan yaşayış məntəqələrinin adlarının dəyişdirilərək "Elbir", "Çinarlı" və "Bəhrəli" adlandırılması məqsədəmüvafiq hesab olunub.

*"Azərbaycan"*

# IDEA-nın aksiyası zamanı Zaqatalada 800-dən çox müxtəlif növ ağac əkilib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yaşıl marafon" kütləvi ağacəkmə kampaniyasının 2026-cı ilin yaz mövsümü çərçivəsində ilk ağacəkmə aksiyası Zaqatala rayonunda təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyinin könüllülərinin iştirakı ilə rayonun Əliabad qəsəbəsi ərazisində ümumilikdə 800-dən çox müxtəlif növ ağac əkilib. Əkilən ağaclar sırasında Eldar şamı, sərv, yapon əzgili, Şərq çinarı, palıd, cökə, ağcaqayın və pekan qozu kimi növlər yer alıb.

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu"nun ("Yaşıl marafon") əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

"Yaşıl marafon" çərçivəsində ötən ilin payız və 2026-cı ilin yaz əkin mövsümlərini əhatə edən ağacəkmə aksiyaları zamanı ölkə üzrə ümumilikdə iki milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.

# CƏNUBİ QAFQAZA YENİ YANAŞMANIN QURUCUSU



*Dünya maraqlar dünyasıdır!*
*Dünya maraqlarla idarə olunur!*

**Odur ki, hər bir dövlət öz maraqlarını yeritməyi və müdafiə etməyi bacarmalıdır!**

**Bunu edə bilməsə, onda özgə maraqlara xidmət edəcəkdir.**

Öz maraqlarını təmin etməkdən ötrü güclü və uzaqgörən olmalısan!

*Güclülər maraqlarını yeritməyi və digərlərinin də onlara xidmət göstərmələrini təmin etməyi bacarırlar.*

**Dövləti maraqlarını müdafiə və təmin etməyin bir yolu da müdrik və uzaqgörən siyasət yürütmək, fəal diplomatiya aparmaqla yaranmış situasiyadan faydalanmaqdır.**

Bunun üçün bəzən illər, hətta on illər gərək ola bilər.

Lakin düşünülmüş, ardıcıl, konstruktiv siyasət yürüdə bilməsən, heç zaman öz istəyinə çatmazsan!

❖ ❖ ❖

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə artıq onunla bağlı münasibətlər çoxdan formalaşmışdı.

*Ötən 70 ildə 15 müttəfiq respublikadan biri olaraq öz maraqlarına yox, mərkəzə xidmət göstərmiş, Moskvanın sözü ilə durub-oturmuşdu.*

Burada da səmərəli yol öz maraqlarını mərkəzin maraqlarına uyğunlaşdırmaq, ümumittifaq büdcəsindən daha çox faydalanaraq xalqına müəyyən xeyir gətirmək idi.

Vəssalam!

**Xarici siyasətdən, dövlətlərarası münasibətlərdən danışmaq isə mənasız və əhəmiyyətsiz idi.**

*Bütün bunlarla müttəfiq respublikalar deyil, birbaşa SSRİ rəhbərliyi, Kreml özü məşğul olurdu.*

**Müstəqil dövlət qurulduqdan sonra isə milli maraqlara əsaslanan daxili və xarici siyasət yeritmək nə A.Mütəllibovun, nə də AXC-Müsavat cütlüyü iqtidarının xörəyi idi.**

*A.Mütəllibov Azərbaycanı müstəqil dövlət kimi təsəvvür belə etmir, SSRİ-nin bərpası ilə bağlı referendum keçirirdi.*

*AXC-Müsavat cütlüyünün isə nəinki xarici siyasət, hətta ölkədaxili siyasət barədə adi təsəvvürləri belə yox idi, yalnız populist bəyanatlarla ölkələrarası münasibətləri korlamağı bacarırdılar.*

Ortabab fizika müəllimini xarici işlər naziri təyin etməklə, əslində, bütün "bilik, səriştə və bacarıq"larını ortaya qoymuş oldular.

**Yalnız xalqın arzu və tələbi ilə ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanın maraqlarına xidmət edən, onun dünya birliyinə sürətli inteqrasiyasını təmin edən səmərəli, uzaqgörən və effektiv siyasi kurs müəyyənləşdirdi, digər dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı maraqları təmin edən xarici siyasət yeritməyə başladı.**

❖ ❖ ❖

**Tanrı Azərbaycana hər şey verib: zəngin karbohidrogen ehtiyatları, digər yeraltı və yerüstü sərvətlər, əlverişli iqlim şəraiti, münbit torpaqlar, üstəlik, strateji coğrafi mövqe!**

İki qitənin - Avropa ilə Asiyanın qovuşmasında yerləşməsi Azərbaycanın geosiyasi dəyərini daha da artırır.

*Lakin imkanların mövcudluğu azdır, əsas məsələ onların reallaşdırılmasıdır.*

**Ulu Öndər Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində qısa zaman kəsiyində bu istiqamətdə çox əhəmiyyətli işlər görüldü, ən əsası daxili və xarici siyasət məsələləri çox uğurlu şəkildə əlaqələndirildi.**

*AXC-Müsavat cütlüyü çox qısa çəkən iqtidarı dövründə ölkə iqtisadiyyatını da çökdürdü, xalqın mənafeyinə xidmət edən neft sazişləri bağlaya bilmədi, hətta dövlət büdcəsini belə formalaşdırmağı bacarmadı.*

**Bazar iqtisadiyyatı prinsiplərinə keçid, iqtisadiyyatın dirçəldilməsi və qısa müddətdə xalqın güzəranının yaxşılaşdırılması üçün Ulu Öndər Heydər Əliyev gecə-gündüz bilmədən, yorulmadan çalışdı.**

* Qısa müddətdə qazanılan ən böyük uğur "Əsrin müqaviləsi"nin imzalanması oldu.

Bu, Azərbaycan neftinin Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmətini təmin edən ilk nəhəng layihə idi.

* Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilməsi isə irəliyə atılan inqilabi addım sayılırdı.

İlk dəfə idi ki, Azərbaycan öz neftini Rusiyadan yan keçməklə dünya bazarına çıxaracaqdı.

Bu kəmər indi də uğurla işləyir və xalqımıza böyük maddi mənfəət gətirir.

* Hər iki nəhəng layihə Azərbaycan-ABŞ münasibətlərinin yaranmasına və inkişafına da böyük töhfə verdi.

**Ulu Öndər Heydər Əliyev ABŞ-yə səfərləri, dövlət başçıları ilə görüşləri zamanı bu əlaqələr daha da inkişaf etdirilərək möhkəmləndirildi.**

Heydər Əliyevin ən müdrik addımlarından biri 11 sentyabr 2001-ci ildə ABŞ-də baş verən dəhşətli terror aktı zamanı dövlət rəhbərliyinə müraciət edərək bu terror əməlini qınaması və pisləməsi, Azərbaycanın daim ABŞ-nin yanında durduğunu bildirməsi oldu.

Azərbaycan Əfqanıstan məsələsində ABŞ-yə dəstək verərək öz hava məkanını onun üzünə açdı, sülhməramlı əməliyyatlarda fəal iştirak etdi.

*Təəssüf ki, bu münasibətlərdə müəyyən xoşagəlməz hallar da baş verdi.*

❖ ❖ ❖

Erməni diasporu həmişə ABŞ-də güclü olub, hətta bu, super dövlətin daxili və xarici siyasətinə də müəyyən təsirlər göstərməyi bacarıb.

Yeni prezident seçilərkən "erməni səsi" ilə onu özlərinə borclu salmaları, rüşvət və korrupsiya yolu ilə senator və konqresmenləri ələ almaları diasporun zamanın sınağından çıxmış uğurları sayılır.

Təəssüf ki, bəzən pula susayanlar öz dövlətlərinin maraqlarına qarşı çıxdıqlarının da fərqində olmurlar.

**ABŞ senatının xarici əlaqələr komitəsinin keçmiş sədri Menendezin əməlləri və aqibəti dediklərimizə əyani misaldır.**

Belə ədalətsiz əməllər dəfələrlə baş verib.

*İlk ən böyük ədalətsizlik 1993-cü ildə əraziləri Ermənistan tərəfindən işğal edilən Azərbaycana qarşı 907-ci düzəlişin tətbiqi oldu.*

Qeyd etdiyimiz kimi, Əfqanıstanla bağlı Azərbaycana işi düşən ABŞ bir müddət onun təsirini dayandırdı.

Lakin Əfqanıstandan tez-tələsik çıxanda Bayden administrasiyası 907-ci düzəlişi yenidən qüvvəyə mindirdi.

**Prezident Baydenin ürəyi bununla da soyumadı.**

24 aprel çıxışlarından birində "erməni soyqırımı" ifadəsini işlətməklə hayların ən "müqəddəs" arzularını da yerinə yetirdi.

*Lakin D.Trampın prezidentliyi dövründə bütün bu yanlışlıqlara və ədalətsizliklərə son qoyuldu.*

**Yaxınlarda Azərbaycanda rəsmi səfərdə olan ABŞ-nin vitse-prezidenti Cey.Di.Vens bu barədə yeni rəhbərliyin mövqeyini və baş verənlərə münasibətini açıq şəkildə bildirdi:**

*"Əfsuslar olsun ki, sonuncu administrasiya bir çox səhvlərə yol verdi. Onların yol verdikləri səhvlərdən biri Azərbaycana münasibətdə çox sərsəm siyasətin yürüdülməsi idi. Biz Prezidentin rəhbərliyi ilə bunu düzəltdik. Buna görə mən çox minnətdaram".*

**Cənab Vens həm də Azərbaycan-ABŞ münasibətlərində əvvəlki səhvlərdən xali olan yeni münasibətlərin başlandığını da bəyan etdi:**

*"Düşünürəm ki, bu, ABŞ üçün çox uzunmüddətli, çox mühüm tərəfdaşlıq və dostluqdur. Fikrimcə, bir çox amerikalılar bəlkə də bilmir. Məsələn, azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular. Onlar dünya səviyyəsində terrorçuluğa qarşı aparılan mübarizəyə çox böyük dəstək verdilər. Onlar ABŞ-nin hərbi dənizçiləri ilə Əfqanıstanda çiyin-çiyinə vuruşublar və faktiki olaraq, dünyanın istənilən yerini götürsək belə, az sayda olan ən mübariz və cəsarətli qoşunlardan biri kimi nüfuz qazandılar. Bu gün biz bu dostluğa təşəkkür əlaməti olaraq buraya gəlmək istəyirdik, sözün əsl mənasında, səhifə çevirmək və növbəti fəslə keçmək istəyirdik".*

❖ ❖ ❖

**Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin gərgin və çoxcəhətli fəaliyyəti sayəsində Azərbaycan xarici siyasət sahəsində bir sıra uğur və nailiyyətlərə imza atdı.**

*Bütün bunların sayəsində ölkəmiz dünya birliyinə inteqrasiya edərək onun nüfuzlu üzvlərindən birinə çevrildi.*

Qarşıya qoyulan hədəflərə çatmaqdan ötrü çətinliklərlə dolu uzun bir məsafə qət edildi.

**Dövlət başçısı İlham Əliyevin bir sıra transmilli layihələrə həyat vəsiqəsi verməsi, xüsusən, "Cənub qaz dəhlizi" layihəsi reallaşdırılaraq ölkəmizin Avropa üçün etibarlı qaz təchizatçılarından birinə çevrilməsi, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin işə salınması, Bakıda beynəlxalq logistika mərkəzinin fəaliyyətə başlaması xüsusi qeyd edilməlidir.**

*44 günlük Zəfər müharibəsində möhtəşəm qələbə qazanaraq torpaqlarını işğaldan azad etməsi, daha sonra ölkənin ərazi bütövlüyünə və dövlət suverenliyinə nail olması xarici siyasət sahəsində daha qətiyyətli addımlar atılmasına imkan yaratdı.*

* Artıq bəzi dövlətlərin Azərbaycana "Qarabağ kartı" ilə təsir və təzyiq göstərmək cəhdləri puça çıxarılmışdır.
* Artıq Azərbaycan yalnız öz maraqlarına əsaslanan siyasət yeridir, onunla təzyiq üslubunda danışmaq istəyənləri dərhal yerində oturdur, yalnız bərabərhüquqlu əməkdaşlığa üstünlük verir.

*Müharibədən qələbə ilə çıxmasına, düşmənin kapitulyasiya aktını imzalayaraq bütün şərtlərimizi qəbul etməsinə baxmayaraq, ölkəmiz birinci olaraq sülh müqaviləsi bağlanması təşəbbüsünü irəli sürdü.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev ikitərəfli danışıqlara üstünlük verərək hərbi qarşıdurmadan əməkdaşlığa keçmək zamanının çatdığını, yeni reallıqlara uyğun davranmağın vacibliyini də göstərdi.**

*Hərbdən sülhə və əməkdaşlığa keçid mərhələsində 8 avqust 2025-ci ildə Vaşinqtonda ABŞ Prezidenti D.Trampın şahidliyi və iştirakı ilə keçirilən Azərbaycan-Ermənistan danışıqlarının mühüm rolu və əhəmiyyəti oldu.*

Dünyanın birnömrəli dövlətinin ofisində Azərbaycan ilə Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair saziş layihəsi paraflandı, habelə ATƏT-in Minsk qrupunun və "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin ləğvi ilə bağlı razılaşma oldu.

Eyni zamanda "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) yaradılması qərara alındı.

Daha bir mühüm yenilik isə Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün strateji işçi qrupunun yaradılması idi.

*Adını çəkdiyimiz xartiya altı ay sonra - 10 fevral 2025-ci ildə Bakıda - Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti adından imzalandı.*

**Bu, həqiqətən də Azərbaycanla ABŞ arasında əməkdaşlığın yeni mərhələsinin başlanmasıdır!**

❖ ❖ ❖

*İki dövlət arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya Bakı-Vaşinqton əməkdaşlığının yeni, həm də daha yüksək mərhələyə yüksəlməsinin əsas göstəricisidir.*

Mətnin mahiyyətindən aydın görünür ki, Cənubi Qafqazda sülhün bərqərar olunması Azərbaycanla bərabər ABŞ-nin də maraqlarına uyğundur.

**Sənəddən irəli gələn ən mühüm nəticə budur ki, artıq Cənubi Qafqaz ABŞ-nin maraq dairəsinə daxil edilmişdir.**

*Uzun illər Rusiya bu bölgəni "arxa bağça"sı hesab etmiş, çar Rusiyasından miras qalan "parçala, hökm sür" siyasətini rəhbər tutaraq Qarabağ münaqişəsinin həllinə imkan verməmiş, əksinə, onu daim qaynar vəziyyətdə saxlayaraq hər iki dövlətə öz iradəsini qəbul etdirməyə çalışmışdır.*

Ukrayna ilə müharibədə iflasa uğrayaraq gücdən və dünya birliyinin gözündən düşən Rusiya artıq Ermənistana da əvvəlki kimi təsir və təzyiq edə bilmir.

Daim imperiya ədası ilə davranması, özünü "böyük qardaş" kimi aparması onu keçmiş dostlarından və müttəfiqlərindən də ayrı salır.

**Bəli, artıq yeni dünya nizamı formalaşır, kim güclüdürsə, o da haqlı sayılır!**

*Lakin güc təkcə hərbi imkanlarla ölçülmür, indi nəqliyyat dəhlizlərinə nəzarət də mühüm əhəmiyyət kəsb edir.*

Üçtərəfli Bəyanatda Zəngəzur dəhlizinin Rusiyanın Federal Xidmətinin nəzarəti altında açılması göstərilmişdi.

Lakin Rusiya bu məqamdan da təzyiq vasitəsi kimi istifadə etmək niyyətilə onu gerçəkləşdirmədi.

**ABŞ Prezidenti D.Tramp isə daha doğru mövqe tutub uzaqgörənlik göstərməklə ona öz adını (TRIPP) verdi və artıq dəhlizin tezliklə işə düşməsi kimsədə zərrə qədər də şübhə doğurmur.**

Azərbaycanı dostları və tərəfdaşları üçün maraqlı və cəlbedici edən təkcə yeritdiyi müdrik və uzaqgörən siyasət deyil, həm də özünün yaratdığı və qurduğu, birgə faydalanmağa təklif etdiyi transmilli layihələrdir.

Ölkəmiz uzun müddətdir ki, müxtəlif dəhlizlərin yaradılmasının təşəbbüsçüsü və fəal icraçılarındandır.

* Əvvəl enerji layihələri reallaşdırıldı...
* Sonrakı dövrdə iş nəqliyyat dəhlizlərində davam etdi...
* Hazırda isə növbə elektrik və fiber-optik dəhlizlərinindir.

Müdrik və uzaqgörən siyasət mövcud dəyərlərə yeni dəyərlər əlavə edilməsinə imkan yaradır.

**İllər öncə Azərbaycan Cənubi Qafqazın ən güclü dövləti titulunu qazanmışdır.**

**Bu gün isə bölgədə həm də yeni münasibətlərin yaradıcısıdır.**

❖ ❖ ❖

Bir vacib məqamı da qeyd etməliyik.

**Cənubi Qafqaza yeni yanaşma bu məkanda yaranmış yeni vəziyyətlə bağlıdır.**

**Yeni reallıqların yaradıcısı isə Azərbaycan Prezidenti cənab İlham Əliyevdir.**

Türkiyə dövlətinə xəyanət edərək müharibə şəraitində ona arxadan zərbə vurduğuna görə köçürülən erməniləri Çar Rusiyası Azərbaycana məxsus bu ərazidə yerləşdirməklə bir neçə niyyət güdürdü.

Belə ki, bu addım təkcə Türkiyəyə qarşı deyil, türk dünyasına qarşı idi və onların bir-biriləri ilə quru yolla əlaqələrini kəsərək ayrı salınmalarına, iqtisadi-mədəni əlaqələrini pozmağa yönəlmişdi.

Sonradan Ermənistan ərazisində 102 nömrəli hərbi bazanın yerləşdirilməsi də Türkiyəni nəzarətdə saxlamaq, daim haylara hərbi dəstək verməklə Azərbaycandan yeni ərazilər qoparılması kimi hərbi-siyasi məqsəd güdürdü.

Sovet hakimiyyətinin mövcudluğu və ondan sonrakı dövrdə Azərbaycanın 20 faiz ərazisinin işğalda qaldığı müddətdə bu siyasət davam etdirildi.

**Cənab İlham Əliyevin 44 günlük müharibədə və sonrakı dövrdə qazandığı möhtəşəm hərbi qələbələr, qardaş Türkiyə ilə bərabər türk dövlətlərinin birliyinin möhkəmləndirilməsi, əlaqə və əməkdaşlıqlarının gücləndirilməsi, habelə bu sahədə əldə olunan razılaşmalar və imzalanan strateji tərəfdaşlıq müqavilələri Cənubi Qafqazda da yeni dövrün başlanmasından xəbər verir.**

*Bu dövrün əsas xüsusiyyətlərindən biri də Rusiya-Ukrayna müharibəsi səbəbindən "Şimal-Cənub" nəqliyyat dəhlizinin təhlükəli olması və sanksiyalar səbəbindən əlverişsizliyidir.*

Orta dəhlizin işə salınması, onun bütün seqmentlərinin dövrün tələblərinə uyğun qurulması və yaxın gələcəkdə TRIPP (Zəngəzur) dəhlizinin reallaşması ilə daha səmərəli və cəlbedici olması isə bütün tərəfləri qane edən mühüm məqamdır!

*Orta dəhlizin açılmasına Rusiyanın əngəl törədə bilməməsi, ABŞ-nin iştirakı ilə Azərbaycanla Ermənistan arasında sülh və əməkdaşlığın yaranması, Çindən və Hindistandan başlayaraq, Avropaya uzanan yola Vaşinqtonun TRIPP layihəsi ilə nəzarət etmə imkanı layihədə marağı olan əsas tərəfləri tam qane edir.*

Artıq Cənubi Qafqazda yeni dövran - sülh və əməkdaşlıq çağı başlayıb!

**İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi ilə yaranan yeni situasiya burada daimi əməkdaşlığa, bütün tərəflərə fayda gətirən əlaqələrin əsrlər boyu davam edəcəyinə zərrə qədər də şübhə doğurmur.**

**Bəxtiyar SADIQOV**

# Azərbaycanın xarici siyasətinin uğurları

**Yeni geosiyasi nizamın formalaşdığı bir dövrdə Azərbaycan və Amerika Birləşmiş Ştatları arasındakı münasibətlər ənənəvi diplomatik çərçivələri aşaraq, strateji tərəfdaşlığın yeni, daha yüksək səviyyəsinə yüksəlib. Ötən 30 il ərzində enerji təhlükəsizliyi çərçivəsində təşəkkül tapan əməkdaşlıq bu gün texnoloji modernləşmə, rəqəmsal transformasiya və regional sülhün təminatı kimi yeni təməllər üzərində inkişaf edir. Martın 10-da Vaşinqtonda ABŞ-Azərbaycan Ticarət Palatasının 30 illiyinə həsr olunmuş "Amerika Birləşmiş Ştatları-Azərbaycan Ticarət və Biznes Gündəliyi: Bazarların Birləşdirilməsi - Gələcəyin Qurulması" adlı beynəlxalq konfransın keçirilməsi də iki ölkə arasında tərəfdaşlığın daha dinamik mərhələyə qədəm qoyduğunu nümayiş etdirdi.**



## Azərbaycan-ABŞ strateji tərəfdaşlığı inkişaf mərhələsindədir

### İqtisadi əməkdaşlıq texnoloji modernləşmə və rəqəmsal transformasiya üzərində yenidən inşa olunur

Konfransda aparıcı maliyyə və inkişaf qurumlarının iştirakı Azərbaycan bazarının amerikalı investorlar üçün ciddi maraq kəsb etdiyini və ABŞ-nin Azərbaycanla iqtisadi münasibətləri dərinləşdirməkdə maraqlı olduğunu təsdiqlədi.

Tədbirdə çıxış edən ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov 30 il əvvəl qoyulan vizyonun bu gün özünü doğrultduğunu və palatanın dialoq platforması kimi fəaliyyətini davam etdirəcəyini vurğulayıb. İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev isə otuz il əvvəl Amerika şirkətlərinin enerji sektorunun inkişafında oynadıqları rolu xatırladaraq, hazırda tərəfdaşlığın növbəti mərhələsinə keçildiyini diqqətə çatdırıb. O, əsas məqsədin siyasi impulsu konkret investisiya layihələrinə çevirmək olduğunu söyləyib və 30 il ərzində ABŞ-nin Azərbaycana 19 milyard dollar birbaşa investisiya yatırdığını, hazırda 200-dən çox Amerika şirkətinin ölkəmizdə fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Qeyd olunan statistik rəqəmlər ABŞ-nin Azərbaycan iqtisadiyyatında nə dərəcədə yer aldığını, ölkəmizin təkcə malların alıcısı yox, həm də cəlbedici investisiya mərkəzi olduğunu təsdiqləyir. Azərbaycanın müstəqillik qazandığı ilk illərdə özəl sektorlar arasında körpü qurmaq və uzunmüddətli iqtisadi əlaqələri inkişaf etdirmək kimi aydın vizyon var idi. 1996-cı ildən bəri fəaliyyət göstərən Ticarət Palatası müstəqilliyimizin ilk illərində Qərb bazarlarına çıxışda və xarici investisiyaların ölkəyə cəlb edilməsində mühüm platforma rolunu oynayıb. Ortaq maraq, etimad və fürsətə əsaslanan əməkdaşlıq ötən müddət ərzində güclü və davamlı tərəfdaşlığa çevrilib. 90-cı illərin əvvəlində qoyulan hədəflər bu gün özünü doğruldub və hazırda daha genişmiqyaslı, enerji, logistika və texnoloji sahələrdə əməkdaşlıqla əvəzlənib.

ABŞ-Azərbaycan arasında strateji tərəfdaşlığın yeni mərhələsinin əsasını qoyan bu cür görüşlər iqtisadi əməkdaşlığın gələcək inkişafı üçün yol xəritəsini müəyyənləşdirir. Yeni yanaşmanın detallarını və regional ticarət əlaqələrinə təsirini ABŞ Dövlət katibinin enerji və kritik minerallar üzrə köməkçisinin müavini Reqqi Sinxin fikirləri aydın şəkildə ortaya qoyur. Dövlət Departamentinin rəsmisi bildirib ki, Prezident Donald Trampın Azərbaycanın dövlət başçısı İlham Əliyevlə avqustun 8-də keçirdiyi tarixi görüşlər və anlaşmalar sayəsində iki ölkə arasında münasibətlər ağlasığmaz səviyyədə dəyişib. O, Cənubi Qafqazda sülhün açarlarından birinin "Tramp marşrutu"nun yaradılması olduğunu vurğulayaraq, bu layihənin uzun müddət bağlı olan regional ticarət yollarını bərpa edəcəyini diqqətə çatdırıb. Sinxin bəyanatı regionda geosiyasi reallıqların köklü şəkildə dəyişdiyini və sülhün iqtisadi rifahın, ticarət yollarının açılmasının zəmanəti kimi çıxış etdiyini göstərir. Bəyan edildiyi kimi, 2024-cü il avqustun 8-də Vaşinqtonda keçirilən yüksəksəviyyəli təmaslar iki ölkə arasında siyasi etimadı maksimal həddə çatdırdı. Eyni zamanda regional təhlükəsizlik və iqtisadi sabitlik üçün yeni imkanlar açdı. Bu razılaşmalar tərəflərin qlobal enerji təhlükəsizliyi və logistika zəncirlərində birgə mövqe tutmasını təmin edərək, münasibətləri ənənəvi formatdan müttəfiqlik müstəvisinə keçirdi. Sinx vitse-prezident Cey.Di.Vensin Azərbaycana səfəri zamanı imzalanan Strateji Tərəfdaşlıq Xartiyasının ikitərəfli münasibətləri görünməmiş bir səviyyəyə qaldırdığını qeyd edib. Bu mühüm sənəd hər iki dövlətin bir-birinin maraqlarını rəsmən tanıması və Azərbaycanın təhlükəsizlik arxitekturasında ABŞ-nin payının artmasının təsdiqidir. Xartiya enerji, ticarət və investisiya sahələri ilə yanaşı, süni intellekt, rəqəmsal inkişaf, təhlükəsizlik və müdafiə kimi mühüm istiqamətləri də əhatə edir.

İki ölkə arasında ticarət dövriyyəsinin mövcud vəziyyətini, Amerika biznesinin Azərbaycan bazarına marağını ABŞ Ticarət katibinin müavini Ceffri Kesslerin statistik təhlilləri bariz şəkildə əks etdirib. Kessler təkcə son bir ildə ABŞ-nin Azərbaycana ixracının 54 faiz artdığını vurğulayıb. Bu göstərici ticarət dinamikasının keyfiyyətcə yeni mərhələyə keçdiyini sübut edir və biznesin siyasi dalğalanmalara qarşı yüksək immunitetə malik olduğunu təsdiqləyir. Adətən, 50 faizdən yuxarı sıçrayışlar təsadüfi olmur. Ekspertlərin fikrincə, ABŞ-dən Azərbaycana ixracın bu dərəcədə kəskin artması bir sıra sektorlarla bağlıdır. Azərbaycanın rəqəmsal transformasiya və "ağıllı şəhər" layihələri üçün ABŞ-dən proqram təminatı və yüksək texnoloji cihazlar alınır. Eyni zamanda kənd təsərrüfatında Amerika istehsalı olan müasir suvarma sistemlərinə və texnikalara tələbat artır.

ABŞ Azərbaycanı yüksəktexnologiyalı məhsulların ixracı üçün etibarlı tərəfdaş kimi görür. Amerika ixracatçılarının Azərbaycan bazarına olan marağının artması ölkədəki biznes mühitinin proqnozlaşdırıla bilməsi ilə bağlıdır. İndiki artım tempi qorunarsa, yaxın illərdə Azərbaycanın qeyri-neft sektorunun modernləşməsində Amerika texnologiyaları aparıcı rola sahib olacaq. Azərbaycanın iqtisadi standartları Qərb standartlarına daha sürətlə uyğunlaşacaq.

Konfransda Azərbaycanın enerji sektoru üzrə qlobal miqyasdakı təşəbbüslərinə də toxunulub. SOCAR-ın beynəlxalq bazarlardakı fəaliyyətini genişləndirmək və enerji təhlükəsizliyi zəncirində yerini möhkəmləndirmək üçün atdığı addımları SOCAR-ın prezidenti Rövşən Nəcəf konkret faktlarla ifadə edib. Neft şirkətinin rəhbəri vurğulayıb ki, SOCAR ABŞ-dəki layihələrə qoşulmaq və pay əldə etməkdə maraqlıdır. O, artıq "Exxon" ilə əməkdaşlığa başlanıldığını və ABŞ-nin müasir texnologiyalarının, təcrübəsinin Azərbaycanın quru və dəniz layihələrində tətbiqinin Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət daşıyacağını qeyd edib. SOCAR-ın ABŞ bazarında pay sahibi olmaq istəyi Azərbaycanın iqtisadi ambisiyalarının qlobal miqyasda böyüdüyünü və ölkənin transmilli korporasiya kimi beynəlxalq enerji zəncirində yerini möhkəmləndirdiyini göstərir. Bu strateji qərar Azərbaycanın qlobal enerji layihələrində iştirak edən və texnologiya transferi həyata keçirən strateji oyunçuya çevrilməkdə olduğunu göstərir.

Azərbaycan üçün ABŞ texnologiyalarına və kapitalına çıxış ölkəmizin postneft iqtisadiyyatına keçidini sürətləndirən mühüm katalizatorlardan biridir. ABŞ üçün isə Azərbaycan etibarlı, sabit və mütərəqqi bir tərəfdaşdır.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

## Azərbaycandakı sabitliyin əsasında milli maraqlara cavab verən siyasi kurs dayanır

**Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan güclü, nüfuzlu ölkə kimi tanınır. Şübhəsiz ki, ölkəmizin tərəqqisinin və ictimai-siyasi sabitliyin əsasında müvəffəqiyyətlə həyata keçirilən praqmatik daxili və xarici siyasət kursu dayanır. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra isə Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin və onun lideri Prezident İlham Əliyevin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə güclənib.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın xarici siyasəti beynəlxalq hüquq prinsiplərinə əsaslanan, mehriban qonşuluq, qarşılıqlı hörmət və humanizm qaydalarına söykənən uğurlu bir xətdir: "Regionda sabitliyin təmin olunması, münaqişələrin dinc yolla həlli və humanitar siyasət bu kursun əsasını təşkil edir. Ölkəmiz qonşu dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan əlaqələrin qurulmasına böyük önəm verir. Azərbaycan regionda geosiyasi və iqtisadi birləşdirici körpü rolunu oynayır, enerji və nəqliyyat layihələri ilə qonşuların iqtisadi əlaqələrini dəstəkləyir. Müasir beynəlxalq münasibətlər sistemində artan geosiyasi gərginliklər dövlətlər üçün düşünülmüş siyasət yürütməyi tələb edir. Bu mənada Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan balanslı və çoxvektorlu xarici siyasət həyata keçirir. Azərbaycan beynəlxalq güclərlə əməkdaşlıq məsələlərində məhz balansı qoruyur və qarşıdurmalardan uzaq siyasət yürüdür".

Deputat bildirib ki, bu siyasətin mühüm xüsusiyyətlərindən biri də Azərbaycanın regional sabitliyin qorunmasına töhfə verən dövlət kimi çıxış etməsidir. Ölkəmiz təkcə iqtisadi və enerji layihələri ilə deyil, həm də humanitar təşəbbüsləri, böhran vəziyyətlərində göstərdiyi operativ yardım və beynəlxalq əməkdaşlığa verdiyi töhfələrlə etibarlı tərəfdaş kimi tanınır. Azərbaycanın müxtəlif regionlarda baş verən humanitar böhranlar zamanı göstərdiyi dəstək - istər təbii fəlakətlər, istər pandemiya dövrü, istərsə də regional gərginliklər fonunda həyata keçirilən yardım missiyaları ölkəmizin beynəlxalq nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir.

S.Fətəliyevanın sözlərinə görə, ölkəmiz dünyada sabitlik adası kimi səciyyələndirilir, bu da təsadüfi deyil: "Çünki ölkəmizin milli gücünü artıran əhəmiyyətli amillərdən biri möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlikdir. Bu məsələdə yerli və xarici ekspertlərin də ümumi rəyi odur ki, Azərbaycanda mövcud olan sabitliyin əsasında duran başlıca faktor dövlətin həyata keçirdiyi siyasi kursun milli maraqlara tam cavab verməsidir. Bütövlükdə, Azərbaycan vətəndaşlarının layiqli həyat şəraitinin təmin edilməsində, sosial rifahın yaxşılaşdırılmasında, inkişafın davamlı olmasında mühüm rol oynayan amillərdən biri etibarlı təhlükəsizlik və sabitlik mühitidir. Eyni zamanda Azərbaycanın strateji coğrafi mövqeyi, inkişaf etmiş nəqliyyat-logistika infrastrukturu və güclü dövlət idarəçiliyi ölkəmizi regionda mühüm diplomatik və humanitar mərkəzə çevirib. Son illər Bakının müxtəlif beynəlxalq tədbirlərə, qlobal forumlara və çoxtərəfli platformalara evsahibliyi etməsi də ölkəmizin beynəlxalq dialoq və əməkdaşlıq üçün etibarlı məkan olduğunu təsdiqləyir".

Deputat qeyd edib ki, bütün bunlar dünya ölkələrinin Azərbaycana etimadını daha da gücləndirir. Yaxın regionumuzda baş verən münaqişələr fonunda bu reallığı aydın şəkildə görürük. Son vaxtlar İran ətrafında baş verən proseslərlə bağlı müxtəlif ölkələrin Azərbaycanla sıx təmaslar qurması ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir. Məlum olduğu kimi, İran ətrafında baş verən gərginlik fonunda yüzlərlə xarici ölkə vətəndaşı məhz Azərbaycan vasitəsilə təhlükəsiz şəkildə təxliyə olunub. Bu proses Azərbaycanın humanitar və təhlükəsizlik baxımından etibarlı tranzit ölkə olduğunu bir daha nümayiş etdirir. Belə bir məsuliyyətli missiyanın həyata keçirilməsi yalnız sabit, güclü dövlət institutlarına və etibarlı təhlükəsizlik sisteminə malik ölkələr üçün mümkündür. Hətta bir sıra ölkələrin İrandakı səfirlikləri Azərbaycana köçürülüb. Buna misal olaraq, İtaliya və Meksikanın səfirliklərini göstərmək olar. "Eləcə də, Macarıstanın və Avstriyanın İrandakı səfirləri və bir sıra ölkələrin diplomatları ölkəmizə təxliyə edilib. Bu faktlar Azərbaycanın sabitlik məkanı olduğunu və bunun dünya ölkələri tərəfindən yüksək qiymətləndirildiyini bir daha təsdiqləyir. Bütövlükdə, Azərbaycan dünyada, o cümlədən regionumuzda sülhün və sabitliyin təmin olunmasının tərəfdarıdır. Həyata keçirilən tədbirlər də məhz bu məqsədə xidmət edir", - deyə Sevinc Fətəliyeva bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycan Cənubi Qafqazda əsas sabitləşdirici amil kimi qəbul olunur

**Konstruktiv beynəlxalq dialoqun təşviqində medianın rolu bu gün Cənubi Qafqaz kimi münaqişələrə yüksək həssaslıq göstərən bölgələr üçün xüsusilə aktualdır. Burada media təkcə informasiya mənbəyi deyil, həm də sülh, əməkdaşlıq və təhlükəsizlik barədə ictimai qavrayışlara təsir göstərmək üçün bir vasitə kimi xidmət edir. Münaqişədən sonrakı transformasiya və geosiyasi dəyişikliklər kontekstində medianın narrativləri qarşıdurma, yoxsa əməkdaşlıq məntiqinin üstünlük təşkil edib-etməyəcəyini müəyyən edir. Bu kontekstdə getdikcə daha çox regional sabitlik və əlaqə amili kimi qəbul edilən Azərbaycanın siyasəti xüsusilə diqqətəlayiqdir. Onun təşəbbüslərinin beynəlxalq və regional mediada işıqlandırılması ölkənin imicinin qlobal arenada necə formalaşdığını izləməyə imkan verir.**

Misirli jurnalist, Yaxın Şərq və Şimali Afrika siyasəti üzrə beynəlxalq ekspert, Vaşinqton müxbiri və Səudiyyə Ərəbistanının "Əş-Şərq əl-Əvsat" qəzetinin ABŞ bürosunun rəhbəri, beynəlxalq, diplomatik və geosiyasi proseslərin analitik işıqlandırılmasında geniş təcrübəyə malik Həba əl-Qüdsi AZƏRTAC-ın suallarını cavablandırır.

*- Cənubi Qafqazda medianın müsbət roluna dair nümunələr varmı?*

- Bəli, Azərbaycan, Ermənistan və Gürcüstanın postsovet mirası və enerji geosiyasəti kontekstində siyasətlərini formalaşdırmağa davam etdiyi Cənubi Qafqazda media bəzi hallarda mövqelər arasında yaxınlaşmaya töhfə verib. Məsələn, Ermənistan ilə Azərbaycan arasında 2025-ci ildə ABŞ-nin vasitəçiliyi ilə aparılan sülh prosesinin işıqlandırılmasında ərazi bütövlüyünün qarşılıqlı tanınması və Naxçıvan eksklavını qlobal bazarlara bağlamağı hədəfləyən "Trump Route for International Peace and Prosperity" (TRIPP) təşəbbüsü vurğulanıb.

*- Azərbaycanın beynəlxalq əməkdaşlığının hansı nümunələri mediada ən müsbət işıqlandırılıb?*

- Son illərdə Azərbaycanın xarici siyasəti getdikcə enerji diplomatiyası, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi və çoxtərəfli formatlarda fəal iştirakı özündə birləşdirən çoxvektorlu prinsiplər üzərində qurulub. Bu, həm milli, həm də bəzi beynəlxalq media orqanlarında müsbət kontekstdə əks olunur və burada Azərbaycan getdikcə praqmatik ortasəviyyəli dövlətin nümunəsi kimi qəbul edilir.

Xüsusilə, 2024-cü ildə COP29-a evsahibliyi qlobal iqlim maliyyələşdirməsinin 2035-ci ilə qədər ildə 300 milyard dollara çatdırılmasını və Paris Sazişinin 6-cı maddəsinin təşviq edilməsini nəzərdə tutan Bakı İqlim Birliyi Paktının qəbul edilməsi ilə nəticələndi. "Reuters" və Azərbaycan mediasının materiallarında ölkənin klassik neft və qaz ixracatçısından potensial bərpaolunan enerji mərkəzinə çevrilməsi, o cümlədən Orta Asiya ilə "yaşıl enerji" dəhlizlərinin inkişaf etdirilməsi vurğulanırdı.



*- Media Azərbaycan-Ermənistan sülh prosesini necə qiymətləndirib?*

- ABŞ-nin vasitəçiliyi ilə 2025-ci ilin avqust ayında keçirilən və sülh müqaviləsinin və TRIPP çərçivəsinin parafландığı Vaşinqton Sammiti media tərəfindən onilliklər ərzində davam edən münaqişəyə son qoymaq üçün atılmış bir addım kimi qəbul edildi. Bu, Azərbaycanın sabitliyin memarı kimi beynəlxalq imicini əhəmiyyətli dərəcədə artırdı və "Carnegie Endowment" də daxil olmaqla, beyin mərkəzləri yeni Avrasiya ticarət marşrutlarının açılmasını qeyd etdilər.

*- Azərbaycanın türk dünyası və Avrasiya məkanında inteqrasiyada rolu necə işıqlandırılır?*

- Türk Dövlətləri Təşkilatının 2025-ci il Zirvə görüşləri ticarət, rəqəmsal texnologiya və bərpaolunan enerji sahələrində genişlənən əməkdaşlıq sayəsində mediada geniş işıqlandırılıb. Xüsusilə, günəş və külək enerjisi sahəsində Çinlə strateji tərəfdaşlığa, eləcə də Türkiyə və Özbəkistanla imzalanmış "Ankara Bəyannaməsi"nə diqqət yetirilib. Bu sənəddə Azərbaycan Avropa, Asiya və Yaxın Şərq arasında "canlı körpü" kimi təqdim olunub.

*- Azərbaycan Yaxın Şərqdə hansı rola malikdir və bu, mediada necə əks olunur?*

- Azərbaycan getdikcə Yaxın Şərqdə "konstruktiv realizm" prinsipinin tərəfdarı mövqeyini tutur. Buna misal olaraq, Suriyadakı gərginliyin azaldılması kontekstində Türkiyə ilə İsrail arasında vasitəçilik səylərini, eləcə də Ankaranın vasitəsilə münaqişədən sonrakı Suriyaya qaz tədarükündə iştirakı göstərmək olar. "Əl-Ərəbiyə" kimi media orqanlarında dərc olunan materiallar Azərbaycanın regional konfrontasiyanı azaltmağa qadir bir dövlət kimi rolunu vurğulayır.

*- Ümumilikdə, Azərbaycanın Cənubi Qafqazda sabitliyə töhfəsi necə qiymətləndirilir?*

Azərbaycan getdikcə Cənubi Qafqazda əsas sabitləşdirici amil kimi qəbul edilir. Yeni regional reallıqdan istifadə edən ölkə özünü regional əlaqəyə fəal töhfə verən dövlətə çevirir. Onun töhfəsi enerji təhlükəsizliyinə, sərhədlərdə vəziyyətin normallaşdırılmasına və şaxələndirilmiş tərəfdaşlığa əsaslanır, həmçinin qarşılıqlı faydalı regional nizam modelini formalaşdırır.

Ermənistanla 2025-ci il sülh çərçivəsi, o cümlədən TRIPP-nin infrastruktur ölçüsü iqtisadi inteqrasiya və silahlanmanın azaldılması üçün perspektivlər açır. "Quruculuq yolu ilə sülh" konsepsiyasını təşviq edən Azərbaycan, həm də Orta dəhlizin inkişafına dair ABŞ və Aİ-nin mövqelərinə uyğun addımlar atır.

## 12 Mart Azərbaycan Respublikasının Daxili Qoşunları Günüdür

**Onlar ilk dəfə 1992-ci ilin 12 mart tarixində əzəli yurd yerimiz olan Qarabağda erməni işğalçılarına qarşı döyüşə atılıblar. Onlar həm Birinci, həm İkinci Qarabağ savaşında, həm də antiterror tədbirlərində və digər döyüş əməliyyatlarında nümunəyə çevrilən qəhrəmanlıqlar göstəriblər, hərb tariximizə yeni salnamələr yazıblar. Onlar hər zaman dövlətə və xalqa sədaqətlə xidmət ediblər, ictimai asayişin, sabitliyin, dövlətimizin konstitusion əsaslarının qorunmasında üzərlərinə düşən vəzifələri şərəflə, məsuliyyətlə yerinə yetiriblər.**



# Vətənə şərəfli xidmətin nümunəsi









Söhbət Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarından gedir. Xalqımızın Ulu Öndəri Heydər Əliyevin 1995-ci il martın 9-da imzaladığı fərmanla Daxili Qoşunların bölmələrinin ilk dəfə erməni işğalçılarına qarşı döyüşə başladıqları gün - martın 12-si Azərbaycan Respublikasının Daxili Qoşunları Günü elan edilib. Bu gün onların tarixi günüdür…

Qeyd etdiyimiz kimi, Daxili Qoşunların döyüş yolu Birinci Qarabağ müharibəsindən başlayıb. Yaranması və formalaşması Azərbaycanın siyasi-hərbi baxımdan olduqca çətin və qarışıq bir dövrünə təsadüf etsə də, Daxili Qoşunların şəxsi heyəti öz vəzifə borcunu layiqincə yerinə yetirərək torpaqlarımızın işğaldan azadlığı uğrunda döyüşlərdə böyük qəhrəmanlıqlar göstərmişdir. Birinci Qarabağ savaşında Daxili Qoşunların şəxsi heyətindən 682 nəfər şəhid olmuş, 4 nəfər itkin düşmüş, 1179 nəfər isə yaralanmışdır. Daxili Qoşunların 9 nəfər hərbi qulluqçusu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Ulu Öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra həyata keçirilən hərbi quruculuq Daxili Qoşunların da tarixində yeni mərhələnin əsasını qoydu. Bu mənada, Daxili Qoşunların müasir



tələblər əsasında inkişafı və peşəkar döyüş hazırlığına malik hərbi quruma çevrilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində Daxili Qoşunlar müasir maddi-texniki bazaya, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilmişdir. Atəşkəs dövründə Daxili Qoşunların xidməti fəaliyyəti ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasına, silahlı cinayətkarların zərərsizləşdirilməsinə, mühüm dövlət obyektlərinin mühafizəsinə yönəlmişdir. Onun təyinatından irəli gələn vəzifələrin icrası ilə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilmiş, xarici ölkələrin müvafiq qurumları ilə hərbi əməkdaşlıq əlaqələri qurulmuş, Daxili Qoşunların tərkibində Hərbi İnstitut, təlim mərkəzləri, helikopter eskadrilyası yaradılmışdır. 12 mart tarixinin Daxili Qoşunlar Günü kimi təsis edilməsi isə bu qurumun dövlət və xalq qarşısındakı xidmətlərinə verilən ali qiymətin təcəssümüdür.

Prezident İlham Əliyevin xüsusi diqqəti və nəzarəti ilə Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığının artırılması və modernləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər Daxili Qoşunların da döyüş imkanlarının daha da yüksəldilməsinə böyük töhfələr vermişdir. Bütün bunların nəticəsi olaraq Daxili Qoşunların arsenalına ən modern silah və texnika daxil olmuş və beləliklə, şəxsi heyətin döyüş hazırlığı daha da güclənmişdir. Döyüş hazırlığının ən müasir səviyyəyə çatdırılmasında, peşəkarlığın artırılmasında taktiki və xüsusi təyinatlı təlimlər də böyük rol oynamışdır. Nəticə etibarilə Daxili Qoşunların hərbi hissələrinin döyüş hazırlığı və peşəkarlığı dünyanın qabaqcıl ölkələrinin analoji hərbi strukturları ilə müqayisə edilə bilən səviyyəyə yüksəlmişdir. O cümlədən Daxili Qoşunların infrastrukturu da yenilənmiş, şəxsi heyətin xidmət və məişət şəraiti, sosial rifahı hər zaman diqqət mərkəzində saxlanılmışdır.

Xatırladaq ki, respublikamızda dünyanın böyük maraqla izlədiyi "Avroviziya-2012" Mahnı Müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər tədbirlər keçirilmişdir. Bu tədbirlər zamanı Daxili Qoşunların şəxsi heyəti Azərbaycan polisi ilə birlikdə ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin edilməsində yaxından iştirak etmiş, öz xidməti vəzifəsini layiqincə və yüksək peşəkarlıqla yerinə yetirmişdir.

2020-ci ilin 44 günlük Vətən müharibəsi Daxili Qoşunların yüksək döyüş hazırlığının təntənəsinə çevrildi. Müharibənin ilk günündən Daxili Qoşunların şəxsi heyəti ən mürəkkəb döyüş əməliyyatlarının uğurla həyata keçirilməsində qəhrəmanlıqlar göstərərək torpaqlarımızın işğaldan azad edilməsinə və tarixi Zəfərimizin qazanılmasına böyük töhfə verdi. Bu baxımdan 44 günlük savaş həm də Daxili Qoşunların şəxsi heyətinin vətənpərvərliyini nümayiş etdirdi. Döyüşlərdə Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid oldu, 346 nəfər isə yaralandı. Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə respublikamızın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiklərinə görə Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusuna "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

2023-cü ilin 19-20 sentyabr tarixində həyata keçirilən, Qarabağdakı erməni separatizminin darmadağın edilməsi və bütün ərazilərimiz üzərində milli suverenliyimizin təmin olunması ilə nəticələnən antiterror tədbirləri Daxili Qoşunların qəhrəmanlıq dolu tarixinin yeni salnaməsi oldu. Ermənistan ordusunun bölmələrinə və separatçılara qarşı aparılan hərbi əməliyyatlarda Daxili Qoşunların əsgər və zabitləri öz vəzifələrini şərəflə yerinə yetirdilər. Antiterror tədbirləri zamanı Daxili Qoşunların şəxsi heyətindən 12 nəfər şəhidlik zirvəsinə yüksəldi, 24 nəfər yaralandı.

Ümumiyyətlə, həm Vətən müharibəsi, həm də antiterror tədbirləri zamanı Daxili Qoşunların şəxsi heyəti qarşıya qoyulan vəzifələri dəqiqliklə icra etmişdi. Bu isə illərlə təlimlərdə formalaşmış döyüş hazırlığının, mükəmməl idarəetmənin, o cümlədən şəxsi heyətin yüksək nizam-intizamının göstəricisidir. Şərəfli döyüş yolları həm də ondan xəbər verir ki, Daxili Qoşunlar ən ekstremal döyüş şəraitində belə əlaqələndirilmiş və çevik xidmət aparmaq imkanlarına malikdir. Əlbəttə ki, rəşadət və zəfər səhifələri olan Vətən müharibəsində və antiterror əməliyyatlarında qazanılan böyük təcrübə Daxili Qoşunların döyüş hazırlığının hər zaman yüksək səviyyədə saxlanılmasında və qarşıda dayanan hər bir vəzifənin uğurla yerinə yetirilməsində böyük rol oynayacaq.

Artıq torpaqlarımız işğaldan azad edilib, ərazi bütövlüyümüz bərpa olunub. Daxili Qoşunların isə işğaldan azad edilmiş ərazilərimizdə dövlətə xidmət missiyası davam edir. Bu baxımdan Vətən müharibəsindən və antiterror tədbirlərindən sonra Qarabağ və Şərqi Zəngəzurda polis əməkdaşları ilə birgə həyata keçirilən xidmət Daxili Qoşunların tarixinin növbəti şərəfli səhifəsidir. Bu xidmətin əsas göstəriciləri kimi işğaldan azad edilmiş ərazilərdə ictimai qayda və təhlükəsizlik ən yüksək səviyyədə təmin olunur, mühüm əhəmiyyətli obyektlər mühafizə edilir. Beləliklə, Daxili Qoşunların bölmələri həm də "Böyük qayıdış" proqramının uğurla və sürətlə həyata keçirilməsi işinə layiqli töhfələr verirlər.

Azərbaycan Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ötən 34 ildə böyük inkişaf yolu keçib, şərəfli tarixini yaradıb. Hər zaman dövlətə və xalqa layiqli xidmət məramını rəhbər tutan Daxili Qoşunlar bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva "Yaşama Dəstək" Mərkəzində olublar




Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva "Yaşama Dəstək" Mərkəzini ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, qonaqlar mərkəzdə xidmət alan uşaqlarla görüşüb söhbət edib, onların qayğıları ilə maraqlanıblar.



## Qlobal fikir ayrılıqlarının, ziddiyyətlərin aradan qaldırılması vacibdir

### XIII Qlobal Bakı Forumunda dünyanı narahat edən aktual mövzular müzakirə olunacaq

**Bakı növbəti dəfə mühüm qlobal tədbirə evsahibliyi edir. Martın 12-də, yəni bu gün Azərbaycan Respublikası Prezidentinin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə XIII Qlobal Bakı Forumu öz işinə başlayır.**




Budəfəki forumun mövzusu "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması"dır. Forum çərçivəsində ənənəvi olaraq dünyanı narahat edən problemlər, çoxtərəfli diplomatiya, çoxqütblü dünya nizamı kimi vacib mövzular müzakirə olunacaq. Eyni zamanda müxtəlif məsələlərə dair panel müzakirələrinin keçirilməsi nəzərdə tutulur. Tədbirdə dünyanın fərqli regionlarından nüfuzlu siyasi xadimlər, beynəlxalq təşkilatların nümayəndələri, sabiq dövlət və hökumət başçıları, alimlər və ekspertlər iştirak edəcəklər.

Forumun budəfəki mövzusu kifayət qədər aktualdır. Nəzərə alaq ki, dünya hazırda tarixi keçid mərhələsindədir. Soyuq müharibədən sonrakı təkqütblü nizamın zəifləməsi və yeni, çoxqütblü düzənin formalaşması beynəlxalq münasibətlərdə ciddi gərginliklər yaradır. Müxtəlif geosiyasi mərkəzlərin fərqli yanaşmaları qlobal idarəetmə sistemlərini iflic vəziyyətinə gətirib çıxarır. Fikir ayrılıqlarının dinc yolla həlli üçün vahid platformaların çatışmazlığı dünyanı yeni toqquşma riskləri ilə üz-üzə qoyur. Dövlətlər arasında qarşılıqlı etimadın azalması həm iqtisadi, həm də siyasi əməkdaşlığı çətinləşdirir. Fikir ayrılıqları təkcə ideoloji deyil, həm də resurslar, sərhədlər və enerji təhlükəsizliyi üzərində cərəyan edir. Qlobal Bakı forumları kimi platformalar, rəsmi diplomatiyanın həll edə bilmədiyi problemlərin, qeyri-rəsmi və daha elastik formatda müzakirəsinə şərait yaradır. Forumun məqsədi həm də dini, mədəni və etnik zəmində baş verən qarşıdurmaları azaltmaqdan ibarətdir. Ölkəmiz müxtəlif maraqlara sahib olan tərəfləri masa ətrafında toplamaqla sülhün və sabitliyin təmin olunmasına real töhfə verir.

Dünən XIII Qlobal Bakı Forumuna həsr olunmuş mətbuat konfransı keçirilib. Mətbuat konfransında mərkəzin həmsədrləri və idarə heyətinin üzvləri iştirak edərək, forumun əsas mövzuları, proqramı və gözlənilən nəticələri barədə media nümayəndələrinə ətraflı məlumat veriblər, qlobal gündəmin prioritet mövzuları barədə fikirlərini bölüşüblər. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin deyib ki, dünya yalnız keçid dövrünü deyil, həm də qırılma mərhələsini yaşayır. Onun sözlərinə görə, XXI əsrin siyasi, hərbi, ekoloji, humanitar və inkişafla bağlı problemlərinin öhdəsindən gəlmək üçün çoxtərəflilik yenidən formalaşdırılmalıdır. Avropa İttifaqı Şurasının sabiq prezidenti Şarl Mişel isə vurğulayıb ki, dünya ciddi bir paradoksla üz-üzədir. Mişel diqqətə çatdırıb ki, dünya heç vaxt olmadığı qədər çoxqütblü olub: "Eyni zamanda isə çoxtərəflilik, yəqin ki, heç vaxt olmadığı qədər zəifdir". O bildirib ki, belə bir forum mövcud şəraitdə qarşılıqlı anlaşmanı gücləndirmək üçün böyük fürsətdir. Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov da deyib ki, Qlobal Bakı Forumu çərçivəsində dünyanın ən vacib mövzuları üzərində müzakirə aparılır: "Hesab edirəm ki, bu forum geosiyasi vəziyyət səbəbindən ən önəmli platformalardan biri olacaq".

Ümumiyyətlə, Qlobal Bakı forumları beynəlxalq gündəlikdə duran mühüm məsələlərin müzakirəsi üçün mükəmməl platformaya çevrilib. Forum beynəlxalq liderləri bir araya toplayaraq qlobal siyasət, təhlükəsizlik, texnologiya və sülh kimi məsələlərin müzakirəsinə geniş və davamlı imkan yaradır. Tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, 2012-ci il sentyabrın 30-da dahi şairin vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda bu mərkəz qlobal problemlərin həlli yollarını araşdıran mühüm beynəlxalq təsisat funksiyasını icra edir. Məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə ildən-ilə maraq artmaqdadır. Azərbaycanın belə forumlara evsahibliyi etməsi, iştirakçıların sayında nəzərəçarpan artım ölkəmizə olan diqqət və etimadın, dövlətimizin başçısı İlham Əliyevin siyasətinə dəstəyin ifadəsi kimi dəyərləndirilir.

2013-cü ildən keçirilən Qlobal Bakı forumlarında dinlərarası, mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, bölgədəki digər münaqişə ocaqları ilə bağlı vəziyyət, etnik və digər zəmində baş verən münaqişələr və bir sıra digər qlobal problemlər geniş müzakirə edilib, onların həlli yollarının tapılması istiqamətində təhlillər aparılıb. Budəfəki foruma müxtəlif regionlardan çoxsaylı iştirakçıların qatılması tədbirin genişmiqyaslı təsirini və beynəlxalq arenada əhəmiyyətini, ölkəmizin dialoqa verdiyi töhfəni bir daha nümayiş etdirəcək. Bu, həm də Azərbaycanın qlobal miqyasda etibarlı tərəfdaş, sülh və sabitlik naminə təşəbbüslərə evsahibliyi edən bir ölkə kimi rolunu gücləndirəcək.

Prezident İlham Əliyevin uzaqgörən və davamlı siyasəti nəticəsində Azərbaycan bu gün sabitlik və təhlükəsizlik adasına çevrilib. Ölkəmiz siyasi-ictimai sabitliyi, dinamik iqtisadi inkişafı, uğurlu xarici siyasəti və sosial rifah səviyyəsi ilə beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Azərbaycanın nüfuzu getdikcə artmaqla yanaşı, ölkəmiz qlobal miqyasda sivilizasiyalararası dialoq və əməkdaşlığın mühüm platformasına çevrilməkdədir. Bu cür forumların Bakıda keçirilməsi Azərbaycanın bu sahədə oynadığı strateji rolu və beynəlxalq arenadakı mövqeyini bir daha təsdiqləyir.

Azərbaycan regionda mühüm söz sahibi və sabitləşdirici qüvvə kimi çıxış edərək beynəlxalq əməkdaşlığın güclənməsinə töhfə verir. 2020-ci ilin Vətən müharibəsində qazanılan tarixi qələbə və ərazi bütövlüyünün bərpası ölkəmizə olan marağı daha da artırıb. Strateji coğrafi mövqeyi sayəsində Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən əsas nəqliyyat və logistika qovşağına çevrilib. Ölkəmiz qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında regionda sabitliyin və inkişafın təmin olunmasına çalışır. Prezident İlham Əliyevin qətiyyətli liderliyi, etibarlı siyasəti və yaradılan əlverişli biznes mühiti Azərbaycanın beynəlxalq nüfuzunun və tərəfdaş ölkələrlə əməkdaşlıq imkanlarının durmadan genişlənməsini təmin edir. Təbii ki, belə bir şəraitdə ölkəmizdə keçirilən beynəlxalq tədbirlər xarici qonaqlar üçün Azərbaycanla dialoqu inkişaf etdirmək, yeni əməkdaşlıq əlaqələri qurmaq baxımından mühüm imkandır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*




# Qarabağa köç davam edir

## Xocavənd və Xocalı rayonları yeni qayıdış karvanlarını qarşıladı

**Tariximizin ən mühüm mərhələlərindən biri olan postmünaqişə dövrü bu gün özünün yeni reallıqları ilə diqqət çəkir. Üç onillik işğal altında qalan torpaqlarımızın azad olunmasından sonra Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Bu proses təkcə dağıdılmış şəhər və kəndlərin yenidən qurulması ilə məhdudlaşmır. Eyni zamanda uzun illər doğma torpaqlarından ayrı düşmüş insanların yurdlarına qayıdışının təmin olunması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib.**













Azərbaycan dövləti azad olunmuş ərazilərdə bərpa prosesinə böyük qələbədən dərhal sonra start verərək qısa müddət ərzində bu torpaqlarda yeni həyatın bərpası üçün mühüm addımlar atıb. İnfrastrukturun qurulması, yolların çəkilməsi, yaşayış məntəqələrinin yenidən salınması, sosial obyektlərin inşası və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi qayıdış prosesinin əsas istiqamətlərini təşkil edir. Dövlətin qarşıya qoyduğu əsas məqsəd yalnız insanların öz yurdlarına köçürülməsi deyil, onların uzunmüddətli və dayanıqlı yaşayış mühiti ilə təmin edilməsidir. Bu baxımdan həyata keçirilən layihələr sistemli və mərhələli şəkildə reallaşdırılır.

Əzəli yurd yerlərimizdə aparılan bərpa və yenidənqurma işlərinin nəticəsi olaraq 2022-ci ilin iyul ayından etibarən keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma torpaqlarına qayıdışı başlayıb. Uzun illər dədə-baba yurdlarına həsrət qalan vətəndaşlarımız artıq öz torpaqlarına qovuşur, burada yeni həyat qururlar. Bu qayıdış prosesi tədricən genişlənir və demək olar ki, elə bir ay, hətta həftə yoxdur ki, yeni köç karvanlarının yola düşməsinin şahidi olunmasın. Bu mənzərə həm dövlətin gücünü, həm də xalqın öz torpaqlarına bağlılığını bir daha nümayiş etdirir.

Böyük qayıdış proqramı Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi ən genişmiqyaslı sosial layihələrdən biri hesab olunur. Xüsusilə 2025-ci il Böyük qayıdış proqramının icrası baxımından mühüm mərhələ kimi yadda qalıb. Həmin il ərzində bir sıra yeni kənd və qəsəbələr sakinlərini qəbul edib, müxtəlif infrastruktur layihələri paralel şəkildə həyata keçirilib. Yeni yaşayış məntəqələrinin istifadəyə verilməsi, evlərin tikintisi və təmiri, sosial obyektlərin fəaliyyətə başlaması qayıdış prosesinin daha da sürətlənməsinə səbəb olub. Dövlətin həyata keçirdiyi bu kompleks tədbirlər insanların doğma yurdlarında rahat və təhlükəsiz yaşamasını təmin etməyə yönəlib.

Dünən daha iki yaşayış məskəni qayıdış karvanlarını qarşılayıb. Bu mərhələdə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə 20 ailə - 81 nəfər köçürülüb, Xocalı rayonunun Xanabad kəndinə isə 21 ailə - 103 nəfər qayıdıb. Bu köçlərlə birlikdə doğma torpaqlarına qayıdan insanların ümumi sayı 7400 ailəyə, yəni 29 min 728 nəfərə çatıb. Bu rəqəmlər Böyük qayıdış proqramının real nəticələrini və onun geniş miqyasını aydın şəkildə göstərir.

Doğma torpaqlarına qayıdan sakinlər dövlət tərəfindən göstərilən diqqət və qayğını yüksək qiymətləndirirlər. Onlar rahat yaşayış şəraitinin yaradılmasına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildirirlər. Eyni zamanda torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərə minnətdarlıqlarını ifadə edir, Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini ehtiramla yad edirlər.

Xocalı rayonunun Xanabad kəndində həyata keçirilən bərpa və yenidənqurma işləri də Böyük qayıdış proqramının konkret nəticələrini göstərən nümunələrdən biridir. İşğaldan əvvəl bu kənddə orta məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərirdi. Kənd həm də tarixi və mədəni irsi ilə diqqət çəkir. Burada XIII əsrə aid kilsə və IX əsrə aid "Aslan qalası" memarlıq abidələri yerləşir. Bu abidələr regionun zəngin tarixinin və mədəni irsinin mühüm nümunələrindən sayılır.

İşğal dövründə kənddəki yaşayış evlərinin böyük hissəsi dağıdılıb və ya yararsız hala düşüb. Ümumilikdə kənddə 276 ev mövcud olub. Onlardan 115-i tam yararsız vəziyyətə düşüb, 161-i isə qismən yararlı hesab olunub. Dövlət tərəfindən həyata keçirilən bərpa işləri nəticəsində indiyədək 120 ev təmir olunaraq istifadəyə hazır vəziyyətə gətirilib. Cari ilin sonunadək daha 41 ev də bərpa edilərək sakinlərin istifadəsinə veriləcək.

Kəndə dönüş prosesi mərhələli şəkildə həyata keçirilir. Bir neçə gün əvvəl 38 ailə - 154 nəfər Xanabada qayıtmışdı. Son köçlərlə birlikdə kənddə yaşayan sakinlərin sayı artıq 257 nəfərə çatıb. Bu isə kənd həyatının yenidən canlanmasının göstəricisidir.

Xanabad kəndində infrastrukturun bərpası və yenidən qurulması istiqamətində də mühüm layihələr həyata keçirilib. Belə ki, mövcud 3 transformator məntəqəsi bərpa olunub, elektrik və qaz xətləri yenilənib. Bununla yanaşı, yeni elektrik, qaz və optik rabitə xətləri çəkilib. Su təminatının yaxşılaşdırılması məqsədilə subartezian quyularında və mövcud su anbarında təmir işləri aparılıb, əlavə olaraq iki yeni su anbarının tikintisinə başlanılıb.

Kəndin su təminatını daha etibarlı etmək üçün Əsgəran qəsəbəsinin ərazisində nasos stansiyası inşa edilib. Bununla yanaşı, kənddaxili yollar bərpa olunub, yaşayış məntəqəsinin girişində "Xanabad" kompozisiyası quraşdırılıb. Xanabad gölünün sahilində park salınıb, estakada inşa edilib və burada dövlət bayrağı ucaldılıb. Görülən bu işlər kənddə həm yaşayış şəraitinin yaxşılaşdırılmasına, həm də estetik mühitin formalaşmasına xidmət edir.

Qarabağ və Şərqi Zəngəzur artıq yalnız münaqişənin acı xatirələri ilə deyil, həm də quruculuq, inkişaf və gələcək perspektivləri ilə xatırlanır. Burada həyata keçirilən hər bir layihə Azərbaycanın uzunmüddətli strateji baxışının tərkib hissəsidir. Dövlətimizin məqsədi bu torpaqları ölkənin ümumi inkişaf modelinə inteqrasiya etmək, regionu iqtisadi, sosial və mədəni baxımdan cəlbedici məkana çevirməkdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Mina problemi ilə əlaqədar Azərbaycan-Çin əməkdaşlığı genişlənəcək



**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında (ÇXR) işgüzar səfərdədir.**

Agentlikdən AZƏRTAC-a verilən məlumata görə, səfərin məqsədi ÇXR-in Xarici İşlər Nazirliyinin Silahlara Nəzarət İdarəsi ilə birbaşa əlaqələrin qurulması, həmin nazirlikdə, Çin Xalq Azadlıq Ordusunun Quru Qoşunları Mühəndislik Universitetində və Çinin minatəmizləmə avadanlıqlarının istehsalı üzrə ixtisaslaşmış bir sıra şirkətlərində görüşlərin keçirilməsidir.

Səfər çərçivəsində ilk görüş Çin Xarici İşlər Nazirliyinin Silahlara Nəzarət Departamentinin baş direktoru Sun Xiaobo ilə olub. Görüşdə ölkəmizin ÇXR-dəki fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov da iştirak edib.

Görüş zamanı ötən il aprelin 23-də Prezident İlham Əliyevin ÇXR-ə dövlət səfəri çərçivəsində Pekində hər iki ölkənin rəhbərləri arasında imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" çərçivəsində ANAMA ilə ÇXR-in Xarici İşlər Nazirliyi arasında imzalanan "Humanitar minatəmizləmə sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun icrası, eləcə də digər əməkdaşlıq məsələləri ətrafında danışıqlar aparılıb.

Baş direktor Sun Xiaobo imzalanan sənədin iki ölkə arasında münasibətlərin inkişafında mühüm mərhələ olduğunu qeyd edərək bildirib ki, humanitar minatəmizləmə fəaliyyəti Azərbaycanın müharibədən sonrakı bərpa və yenidənqurma prosesində mühüm rol oynayır. Çin tərəfinin Azərbaycanın minatəmizləmə səylərini dəstəkləməyə, həmçinin bu sahədə əməkdaşlığın gələcəkdə daha da genişləndirilməsində maraqlı olduqlarını vurğulayıb.

Vüqar Süleymanov ÇXR-in ölkəmizdə minatəmizləmə fəaliyyətinə töhfəsinə görə qarşı tərəfə təşəkkür edib və həmin addımın Azərbaycanın mühüm humanitar missiyasında dost ölkənin həmrəyliyinin göstəricisi olduğunu qeyd edib.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Çin dövlətinə məxsus müdafiə sənayesi kompleksi olan NORINCO (China North Industries Group Corporation) şirkətinin sərgi mərkəzinə baş çəkib, daha sonra şirkət rəhbərliyinin iştirakı ilə geniştərkibli görüş keçirib.

Sərgi mərkəzində minatəmizləmə sahəsində istehsal olunan müxtəlif avadanlıqlar, o cümlədən mexaniki minatəmizləmə maşınları, partlayıcı sursatların zərərsizləşdirilməsi üçün istifadə edilən robotlar, mina aşkarlayan dronlar və digər texnoloji həllər nümayiş etdirilib. Şirkətin mütəxəssisləri təqdim olunan avadanlıqların texniki xüsusiyyətləri və tətbiq imkanları barədə geniş məlumat verib, Azərbaycan nümayəndə heyətinin suallarını cavablandırıblar.

Belə sərgilərə səfərlər minatəmizləmə sahəsində qabaqcıl təcrübənin araşdırılması və innovativ yanaşmaların tətbiqinə şərait yaradır.

Görüşdə səfərin tərəflər arasında əməkdaşlığın başlanması və gələcək tərəfdaşlıq imkanlarının araşdırılması baxımından mühüm ilkin addım olduğu vurğulanıb.

Səfər həm də Azərbaycanın üzləşdiyi mina problemi və onun aradan qaldırılması sahəsində dövlətimiz tərəfindən həyata keçirilən tədbirlər barədə ÇXR-in və orada fəaliyyət göstərən yerli şirkətlərin ətraflı məlumatlandırılmasına və bununla da problemə beynəlxalq diqqətin artırılmasına müsbət təsir göstərəcəyinə ümid bəsləməyə əsas verir.

Qeyd edək ki, bu səfər 9-13 mart tarixlərini əhatə edir.

# Azərbaycan ehtiyatlı diplomatiyası ilə geosiyasi tarazlığın mühüm aktorlarından birinə çevrilib



**"Son illərdə beynəlxalq sistem getdikcə daha kövrək və qeyri-stabil xarakter alarkən, Avrasiya coğrafiyası da ard-arda baş verən böhranların əsas mərkəzlərindən birinə çevrilib. Yaxın Şərqdə dərinləşən münaqişələr, enerji təhlükəsizliyi ilə bağlı müzakirələr və qlobal ticarət yollarının yenidən formalaşması ölkələrin geosiyasi mövqelərini yenidən müəyyənləşdirməsinə səbəb olub. Bu geniş mənzərə daxilində Cənubi Qafqaz artıq yalnız regional rəqabət meydanı deyil, Avropa ilə Asiya arasında strateji əlaqə nöqtələrindən biri kimi qiymətləndirilir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında "Kıbrıs Raporu" Xəbər Agentliyinin baş redaktoru, siyasi şərhçi Mert Özdeş deyib.

O qeyd edib ki, rəsmi Bakının son illərdə həyata keçirdiyi balanslı xarici siyasət, enerji və nəqliyyat layihələrinə etdiyi investisiyalar və regional böhranlarda nümayiş etdirdiyi ehtiyatlı diplomatiya ölkəni Avrasiyadakı geosiyasi tarazlığın mühüm aktorlarından birinə çevirib. Son illərdə Azərbaycanın ön plana çıxan ən mühüm xüsusiyyətlərindən biri Avrasiyada nəqliyyat və logistika şəbəkələrinin əsas mərkəzlərindən biri olmasıdır. Xəzər dənizi vasitəsilə Orta Asiyaya, Qafqaz üzərindən Türkiyə və Avropaya uzanan nəqliyyat xətləri Azərbaycanı qlobal ticarət üçün strateji keçid nöqtəsinə çevirir. Lakin Azərbaycanın əhəmiyyəti yalnız ticarət marşrutları ilə məhdudlaşmır. Ölkə eyni zamanda böhran dövrlərində təhlükəsiz lojistik imkanları ilə ön plana çıxır. Avropa, Orta Asiya və Yaxın Şərq arasında qurduğu balanslı diplomatiya sayəsində Bakı müxtəlif aktorların ünsiyyət qura bildiyi nadir platformalardan biridir. Bu səbəbdən Azərbaycanın oynadığı rol yalnız tranzit ölkə olmaqdan daha artıqdır, o, regional sabitliyi dəstəkləyən "geosiyasi körpü" funksiyasını daşıyır.

Ekspertin fikrincə, Qarabağ Zəfərindən sonra Cənubi Qafqazda yaranan yeni geosiyasi reallıq regionun uzun illər davam edən münaqişə dövründən çıxa biləcəyinə dair mühüm siqnallar verir. Azərbaycan ilə Ermənistan arasında aparılan diplomatik təmaslar və nəqliyyat xətlərinin açılması istiqamətində atılan addımlar regional inteqrasiya baxımından yeni bir imkan yaradır. Nəqliyyat dəhlizlərinin açılması yalnız iki ölkə arasındakı münasibətləri normallaşdırmaqla kifayətlənməyəcək, eyni zamanda Orta Asiya, Türkiyə və Avropa arasında yeni iqtisadi əlaqələrin qurulmasına da töhfə verəcək.

"Bu səbəbdən, Cənubi Qafqazda sülh prosesi ilə iqtisadi əlaqələndirmə layihələri bir-birindən ayrılmaz iki element kimi qiymətləndirilməlidir. Bu gün Cənubi Qafqazın gələcəyi əsasən əlaqələndirmə layihələri, iqtisadi inteqrasiya və diplomatik dialoq üzərində qurulur. Türkiyə ilə Azərbaycan arasındakı strateji uyğunluq isə bu yeni geosiyasi memarlığın ən güclü sütunlarından biri kimi ön plana çıxır", - deyə Mert Özdeş əlavə edib.

# Zabuxda torpaqların əkin məqsədli istifadəyə verilməsi üçün müraciətlər martın 16-dək davam edəcək

**Laçın rayonunun Zabux kəndi üzrə torpaqların əkin məqsədli istifadəyə verilməsi üçün sonuncu müraciətlərin qəbuluna başlanır.**

AZƏRTAC xəbər verir ki, müraciətlərin qəbulu Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) - eagro.az saytı vasitəsilə həyata keçirilir. Zabux kəndində məskunlaşan və yaşayan sakinlərdən sonuncu müraciətlərin qəbulu prosesi martın 16-dək davam edəcək.

Zabux kəndi üzrə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli 236 nömrəli fərmanının 4.1-ci bəndi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 dekabr tarixli 544 nömrəli qərarı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"na əsasən həyata keçiriləcək.

Torpaq sahələri minimum 5 ha təşkil etməklə dəmyə (suvarılmayan) ərazilər olub, əkin üçün hazır vəziyyətə gətirilmiş kənd ətrafında yerləşən torpaqlardır. Bu kəndlərdə dəmyə ərazilər üçün xarakterik olan buğda, arpa, noxud, kartof, yem bitkilərindən olan yonca, xaşa, müxtəlif ot qarışıqlarının əkilməsi nəzərdə tutulur.




Zabux kəndinə köçən sakinlər aşağıdakı arıdıcıllıqla torpaqların güzəştli qaydada əkinlərin aparılması məqsədilə istifadəsi üçün müraciət edə bilərlər:

EKTİS-də qeydiyyatdan keçmək (avtomatlaşdırılmış qaydada fermer elektron kabinetinə sahib olmaq)

Elektron kabinet "Müraciətlərim" bölməsində "torpaq icarəsinə müraciət" - "Zabux" seçməklə ərizə formasını doldurmaq.

Şəxsiyyət vəsiqəsi üzrə qeydiyyat yerindən asılı olmayaraq, faktiki yaşayış yerinin Zabux kəndinin olduğunu Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin "e-polis" tətbiqində qeyd etmək.

Qeyd edək ki, müraciət edən şəxslər ilə müqavilələrin imzalanması, təlimlərin keçirilməsi və ərazilərin yerində tanıdılması oktyabrın sonu-noyabrın əvvəlində baş tutacaq. İcarə müqavilələrinin müddəti birillik bitkilər və yem bitkiləri üçün 2 il təşkil edəcək və istifadə nəticələrinə müvafiq olaraq uzadılacaq.

Xatırladaq ki, işğaldan azad edilmiş rayonlarda torpaqların istifadəyə verilməsi prosesinə ilk dəfə Ağalı kəndindən başlanıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Xəzərdə də "Qarabağ"ımız var

### Bu yataq indiyədək yalnız Şimal dənizində istifadə olunmuş ən müasir texnologiya ilə işlənəcək

**Prezident İlham Əliyev cari ilin əvvəlində yerli televiziya kanallarına müsahibəsində neft hasilatının sabitləşdirilməsinin vacib məsələ olduğunu bildirib. Ölkədə neft və qaz hasilatının artırılması, yaxud sabitləşdirilməsinin yollarından biri isə yeni yataqların istişmara daxil olması ilə bağlıdır. Hazırda Xəzərin Azərbaycan sektorunda işlənməsinin müxtəlif mərhələlərində olan bir sıra belə yataqlar var ki, "Qarabağ" da onların sırasındadır.**

İlkin hesablamalara görə, "Qarabağ" yatağında geoloji neft ehtiyatları 60 milyon tondan artıqdır. Bunun da 21 milyon ton nefti və 13 milyard kubmetr qazı çıxarıla bilən hesab olunur.

BP-nin SOCAR-dan (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Qarabağ" layihəsində 35 faizlik pay alması barədə müqavilə iki şirkət arasında keçən il iyunun 3-də Bakı Enerji Həftəsi çərçivəsində imzalanıb. Layihənin operatoru kimi BP çıxış edir.

Təsadüfi deyil ki, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli keçən həftə jurnalistlər üçün keçirdiyi brifinqdə bu layihə üzərində də xüsusi dayanıb. Belə ki, hazırda "Qarabağ"da ilk addım kimi dənizdibi sensor qovşaqlarla (OBN) tədqiqat daxil olmaqla seysmik tədqiqat proqramı həyata keçirilir. OBN tədqiqatının "Qarabağ" haqqında bilgiləri artıracağı, quyuların planlaşdırılmasına və yatağın işlənmə strategiyalarının optimallaşdırmasına kömək edəcəyi gözlənilir. OBN tədqiqatı 2025-ci ilin dekabrında başlayıb və təqribən 3 ay yarım davam edəcək. Yüksək və ultra yüksəkdəqiqlikli seysmik tədqiqatda isə əsas məqsəd quyu bütövlüyünə təsir göstərə biləcək geoloji riskləri, eləcə də platformanın və digər infrastrukturun təhlükəsiz şəkildə quraşdırılmasına maneə yaradan yeraltı təhlükələri müəyyənləşdirməkdir.

"Qarabağ" yatağında seysmik tədqiqat proqramına aid Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) sənədinin layihə variantı 2025-ci ilin oktyabr ayında ictimaiyyətə açıqlanıb və sənədin yekun variantı dekabrda dövlət tərəfindən təsdiqlənib.

Cio Kristofoli bildirib ki, "Qarabağ" yatağında işlərin sürətləndirilməsi üçün seysmik tədqiqatlarla yanaşı, gələcək hasilat üçün tələb olunan obyektlərin layihələndirilməsinə başlanıb. Hasilatı həyata keçirmək üçün platforma tikilməyəcək. Hasilat sualtı quyulardan əldə ediləcək. Quyular "Dərinsulu Günəşli" platformasına sualtı infrastruktur vasitəsilə qoşulacaq.

Yeri gəlmişkən, "Qarabağ" yatağı Bakıdan 120 kilometr şərqdə, "Günəşli" yatağından 20-25 kilometr aralıda, suyun 150-200 metr dərinliyində yerləşir.

"Qarabağ"ı mövcud infrastrukturla birləşdirəcək boru kəmərlərinin tikintisi yeni texnologiya ilə aparılacaq. Yəni tikinti dənizdə borudüzən gəmidən istifadə edilməklə deyil, quruda həyata keçiriləcək.

"Boru kəmərləri tamamilə sahildə quraşdırılacaq və sürüşdürmə üsulu ilə yatağa çatdırılacaq. Bunun üçün quruda xüsusi obyektin tikintisi planlaşdırılır, ondan digər layihələr üçün də istifadə olunacaq. Tikinti üçün yer artıq müəyyən edilib və bu məsələ hazırda aidiyyəti qurumlarla razılaşdırma mərhələsindədir", - deyə C.Kristofoli məlumat verib.

Qeyd edək ki, bu, tam yeni bir texnologiyadır və indiyədək Şimal dənizindən başqa heç yerdə tətbiq olunmayıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "SOCAR ABŞ-dəki layihələrə çıxış və pay əldə etməkdə çox maraqlıdır"

**"30 ildən çox müddətdə Azərbaycan ilə ABŞ arasında enerji sahəsində uğurla davam etdirilən əməkdaşlıq ölkəmizin enerji sektorunun inkişafına mühüm töhfə verib".**

Bunu SOCAR-ın prezidenti Rövşən Nəcəf ABŞ-Azərbaycan Ticarət Palatasının 30 illiyinə həsr olunmuş "Amerika Birləşmiş Ştatları-Azərbaycan Ticarət və Biznes Gündəliyi: Bazarların Birləşdirilməsi - Gələcəyin Qurulması" adlı beynəlxalq konfransın "İkitərəfli ticarətin və strateji əməkdaşlığın gücləndirilməsi" mövzusunda açılış sessiyasında çıxışında deyib. AZƏRTAC xəbər verir ki, ABŞ şirkətlərinin Azərbaycanın iri neft-qaz layihələrində iştirak edən ilk tərəfdaşlardan olduğunu söyləyən SOCAR prezidenti bu əməkdaşlığın möhkəm təməlinin "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulduğunu bildirib.

Ötən illər ərzində SOCAR ilə ABŞ şirkətləri arasında səmərəli əməkdaşlığın enerji sektorunun müxtəlif istiqamətlərində genişləndiyini söyləyən Rövşən Nəcəf bu tərəfdaşlığın kəşfiyyat və hasilat ilə yanaşı, mühəndislik, rəqəmsal texnologiyalar və dayanıqlılıq təşəbbüslərinə qədər mühüm istiqamətləri əhatə etdiyini vurğulayıb. Xüsusilə, süni intellektin biznesdə istifadəsinin geniş vüsət alması ilə data mərkəzlərinin yaradılmasına tələbatın artdığı bir dövrdə bu məsələnin də diqqət mərkəzində olduğunu qeyd edib.

SOCAR prezidenti Azərbaycanın "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya etibarlı təbii qaz tədarükləri həyata keçirdiyini bildirərək ölkəmizin Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm rol oynadığını diqqətə çatdırıb.

Rövşən Nəcəf strateji coğrafi mövqeyi, inkişaf etmiş infrastrukturu və uzun illər ərzində formalaşmış uğurlu beynəlxalq əməkdaşlıq təcrübəsi sayəsində Azərbaycanın regional enerji mərkəzi və Xəzər regionuna açılan mühüm qapı kimi mövqeyini daha da möhkəmləndirdiyini qeyd edib.

## Astana, Bakı və Daşkənd Avropaya enerji körpüsü qurur

**Qazaxıstan parlamenti Qazaxıstan, Özbəkistan və Azərbaycan arasında "Yaşıl enerjinin istehsalı və ötürülməsi üzrə strateji tərəfdaşlıq Sazişi"ni təsdiqləyib.**

Bu sənəd dövlət başçıları tərəfindən 13 noyabr 2024-cü il tarixində Bakıda keçirilən COP-29 konfransı çərçivəsində imzalanıb. AZƏRTAC Qazaxıstan Energetika Nazirliyinə istinadla xəbər verir ki, layihə Qazaxıstanı Xəzər dənizi vasitəsilə Avropa ilə birləşdirən "Yaşıl Enerji Dəhlizi"nin yaradılmasını nəzərdə tutur. Əsas elementlərdən biri Xəzər dənizinin dibi ilə Qazaxıstan və Özbəkistandan Azərbaycana yüksəkgərginlikli, dərin dəniz, sabit cərəyan (DC) kabelinin çəkilməsidir. Sonradan oxşar Qara dəniz layihəsi vasitəsilə Avropaya enerji ixracı həyata keçiriləcək. Saziş, həmçinin "yaşıl ammonyak" və hidrogeni əhatə edir.

## ASF ötən il 54 rayonda 9,2 milyon manat sığorta ödənişləri edib

**İqtisadiyyatda ən riskli sahə aqrar sektordur. Əsas səbəbi onun iqlimlə birbaşa bağlı olmasıdır. Son dövrlər isə iqlim dəyişikliyi nəticəsində baş verən anomal havalar daha çox risk yaradır, başqa sözlə, kəndlinin olan-olmaz vəsaitindən istifadə edib gördüyü iş təbiətin inkişafına qalır. Bu zaman onun köməyinə sığorta sistemi gəlir.**

Qlobal səviyyədə qəbul edilən aqrar sığorta fermeri hər cür risklərdən qoruyan yeganə düzgün yoldur. Ölkəmizdə də bu məqsədlə aqrar sığortaya geniş yer verilir. Dövlət kəndliyə təsərrüfatını sığorta edərkən yük düşməsin deyə 50 faizlik güzəşt edir. Yəni sığorta vəsaitinin yarısı dövlət tərəfindən ödənilir. Dövlətin verdiyi bu cür dəstək sayəsində ildən-ilə daha çox fermer öz təsərrüfat sahəsini sığorta etdirir.

Aqrar Sığorta Fondu (ASF) tərəfindən verilən məlumata görə, keçən il 54 rayonda aqrar sektorda çalışan fərdi təsərrüfat sahibləri və fermerlərə 9,2 milyon manat məbləğində sığorta ödənişi həyata keçirilib. O cümlədən bitkiçilik məhsulları ilə bağlı baş verən zərərlərə görə 51 rayonda 8,8 milyon manat məbləğdə ödənişlər edilib. Əvvəlki illə müqayisədə 2025-ci ildə Zərdab, Astara, Oğuz, Abşeron, Siyəzən, Xızı, Sabunçu və Cəbrayıl rayonlarında, eləcə də ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında - Babək və Şahbuz rayonlarında sığorta ödənişləri verilib.

Heyvandarlıq sahəsində aqrar sığortanın tətbiqi ildən-ilə artır. 2025-ci ildə heyvandarlıq təsərrüfatlarında baş vermiş hadisələr üzrə ASF tərəfindən 21 rayonda təsərrüfatlara ümumi məbləği 400 min manat olan sığorta haqqı ödənilib.

Fond tərəfindən sığorta ödənişlərinin davamlı artması və zərərlərin qarşılanması nəticəsində fermerlərin aqrar sığorta mexanizminə marağı artmaqdadır. Məlumat üçün bildirək ki, aqrar sığorta mexanizmi bitkiləri təbiət hadisələri - dolu, fırtına, qasırğa, sel-subasma, şaxtavurma, leysan, yanğın, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin hərəkətləri və sair risklərdən qoruyur. Kənd təsərrüfatı heyvanları isə yoluxucu xəstəliklər, yemdən və otdan zəhərlənmə, vəhşi heyvanların hücumu, ilan və həşərat sancması, yanğın, təbii fəlakətlər, avtomobil vurması, qəza nəticəsində tələf olma, üçüncü şəxslərin hərəkətləri kimi risklərdən sığortalanır.

Ağdam rayonunun Ergi qəsəbəsindən olan fermer buğda sahəsinə dolu yağması nəticəsində dəymiş zərərə görə böyük məbləğdə sığorta ödənişi alıb. Qəsəbə sakini Aybəniz Şirinova 2025-ci ildə 61 hektar buğda sahəsini sığortalamış və bunun üçün 2034 manat sığorta haqqı ödəyib. 2025-ci il mayın 11-də baş verən dolu hadisəsi onun da əkin sahəsinə zərər vurdu. Aparılmış zərər qiymətləndirməsi nəticəsində əkin sahəsində məhsulun 39 faizinin itirilməsi qeydə alındı. Zərər hesablaması nəticəsində fermerə 24702 manat məbləğində sığorta ödənişi olundu.

ASF daha çox fermerləri sığortaya cəlb etmək məqsədilə rayonlarda təsərrüfat sahibləri ilə görüşlər keçirərək onlara aqrar sığortanın əhəmiyyətini çatdırırlar. Belə tədbirlərdən biri də bu günlər Zərdabda keçirilib. Bu rayonun iqtisadiyyatının böyük hissəsi - 60 faizi kənd təsərrüfatının payına düşür, əhalinin isə 80 faizi kəndlərdə yaşayır. Rayonun 33 min hektardan artıq əkin sahəsinin böyük hissəsi - təqribən 29 min hektarında taxıl və yem bitkiləri əkilir. Təkcə buğda və arpa əkilən ərazilər 14 min hektardan artıqdır. Bundan başqa, rayonda 3100 hektar sahədə pambıq, 505 hektar qarğıdalı, 380 hektarda çəltik, təqribən 700 hektarda kartof, tərəvəz və bostan bitkiləri əkilir. Rayonda dolu, leysan və subasma kimi hallar nətincəsində bu təsərrüfatlara böyük məbləğdə ziyan dəyir. Elə bu səbəblərdən belə bir tədbirin Zərdabda keçirilməsi təsadüfi deyildi. İştirakçıların verdikləri suallardan, ASF-nin fəaliyyətinə göstərdikləri maraqdan aydın görünürdü ki, fermerlər bu işin onların xeyrinə olduğunu artıq qəbul edirlər. O üzdən ASF-yə müraciət edən zərdablı fermerlərin sayı bu gün ardıcıl artır.



***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## İslam ölkələrinin iqtisadi potensialı: resurslar, perspektivlər, əlaqələr

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən hazırlanmış "The Economic Potential of Islamic Countries" ("İslam ölkələrinin iqtisadi potensialı") adlı ikicildlik tədqiqat əsərinin ikinci cildi Böyük Britaniyanın tanınmış "Emerald" nəşriyyatında çap olunaraq işıq üzü görüb. İİTKM-in icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlının baş redaktorluğu ilə təqdim olunan bu nəşr islam ölkələrinin iqtisadi və sosial inkişaf potensialının geniş və dərin elmi təhlili kimi xüsusi əhəmiyyət kəsb edir.**




Qeyd edək ki, "Emerald" nəşriyyatı dünya miqyasında akademik və elmi nəşrlər üzrə nüfuzlu bir platformadır. O, əsasən, iqtisadiyyat, idarəetmə, sosial elmlər və təhsil sahələrində kitablar, jurnallar çap edir, həmçinin tədqiqatların qlobal səviyyədə tanınması və yayılmasına xidmət edir. "Emerald"ın çap etdiyi nəşrlər geniş elmi bazalarda, o cümlədən "Scopus"da indeksləşdirilir və bu, onların akademik etibarlılığını, eləcə də elmi əhəmiyyətini daha da artırır. Nüfuzlu nəşriyyat tərəfindən çap edilmiş sözügedən tədqiqat əsəri xüsusi olaraq islam ölkələrinin iqtisadi və sosial inkişaf potensialını əhatəli şəkildə təhlil edir, onların dünya iqtisadiyyatındakı rolunu dəyərləndirir.

Kitabda islam ölkələrinin iqtisadi inkişaf perspektivləri dayanıqlı inkişaf, idarəetmə, enerji transformasiyası və rəqəmsal iqtisadiyyat kimi aktual istiqamətlər çərçivəsində ətraflı təhlil olunur. Qlobal iqtisadi mühitin sürətlə dəyişdiyi, texnoloji irəliləyişlərin, geosiyasi transformasiyaların və iqlim dəyişikliyinin iqtisadi sistemlərə ciddi təsir göstərdiyi bir dövrdə nəşr islam ölkələrinin kollektiv iqtisadi potensialından daha səmərəli istifadə yollarını araşdırır. Eyni zamanda ölkələrin qarşısında duran əsas vəzifələr - iqtisadiyyatın şaxələndirilməsi, siyasi sabitliyin təmin edilməsi və infrastrukturun gücləndirilməsi də diqqət mərkəzində saxlanılır.

Məlumdur ki, islam ölkələri Asiya, Afrika, Yaxın Şərqdə yerləşir və dünya iqtisadiyyatında mühüm rol oynayır. Onların iqtisadi potensialı təbii resurslar, əhali və işçi qüvvəsi, sənaye və kənd təsərrüfatı ilə bağlıdır. Təbii resurslar islam ölkələrinin iqtisadi inkişafında əsas rol oynayır. Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirlikləri böyük neft-qaz ehtiyatlarına malikdir. Bu resurslar ölkələrə əhəmiyyətli gəlir gətirir və dünya enerji bazarında strateji mövqe tutur. Afrika və Orta Asiya ölkələri isə mineral resurslar, məsələn, fosfat və qızıl baxımından zəngindir. Regionlar üzrə enerji və mineral potensialı fərqlidir. Məsələn, Cənub-Şərqi Asiya ölkələrində enerji resursları məhduddur, lakin insan kapitalı və turizm imkanları güclüdür.

Sənaye və kənd təsərrüfatı islam ölkələrinin iqtisadiyyatını şaxələndirir. Neft sənayesi, kimya və tikinti materialları istehsalı bir çox ölkədə əsas sahə hesab olunur. Sənayenin şaxələndirilməsi təşəbbüsləri ixracı artırmaq və neftdən asılılığı azaltmaq üçün əhəmiyyətlidir. Kənd təsərrüfatı sahəsində isə buğda, qəhvə, palma yağı və meyvə-tərəvəz istehsalı ölkələrin iqtisadi inkişafında mühüm rol oynayır. Xüsusilə iqtisadi əməkdaşlıq və beynəlxalq ticarət islam ölkələrinin potensialını gücləndirir. İƏT (İslam Əməkdaşlıq Təşkilatı) çərçivəsində ticarət əlaqələri və birgə layihələr həyata keçirilir, xarici sərmayələr iqtisadiyyatı şaxələndirir.

Sadaladığımız bu iqtisadi imkanlar və əməkdaşlıq perspektivləri İİTKM tərəfindən hazırlanmış "İslam ölkələrinin iqtisadi potensialı" adlı tədqiqat əsərində ətraflı şəkildə təhlil olunur. Kitab 20-dən çox islam ölkəsindən nüfuzlu beyin mərkəzlərini təmsil edən 47 müəllifin iştirakı ilə hazırlanıb. Nəşrdə ICESCO və OIC SESRIC kimi beynəlxalq təşkilatların ayrıca fəsillərlə təqdim olunması isə layihənin həm elmi, həm də praktiki əhəmiyyətini artırır, onu islam ölkələrinin iqtisadi və sosial inkişaf potensialının genişmiqyaslı, dərin akademik təhlilinə çevirir.

Layihə "Şuşa şəhərinin 2024-cü il üçün islam dünyasının mədəniyyət paytaxtı elan edilməsi" ilə bağlı icra olunub. Ötən il nəşr olunan kitabın birinci cildində iqtisadi əməkdaşlıq, fiskal siyasət və islam maliyyəsi mövzuları ətraflı şəkildə araşdırılıb. Hər iki cild isə İƏT və D-8 ölkələrinin təcrübələrini müqayisəli şəkildə təqdim etməklə yanaşı, Azərbaycanın regional əməkdaşlıq və enerji diplomatiyasında artan rolunu da ön plana çıxarır. Nəticə etibarilə "İslam ölkələrinin iqtisadi potensialı" həm akademik ictimaiyyət, həm də iqtisadi və siyasi sahədə qərar qəbul edənlər üçün qiymətli bir resursdur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Daha 8 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib

**"Startap" şəhadətnaməsi almaq üçün KOB subyektlərindən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) daha 11 müraciət daxil olub.**

Müraciətlərə Ekspertlər Şurasının iclasında baxılıb və onlardan 8-nə "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul edilib. Bununla da "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 263-a çatıb.



"Startap" şəhadətnamələri "İmza İdea Lab" MMC-nin süni intellekt əsaslı hədiyyə axtarışı və satışı platforması, "Baysart" MMC-nin qızılın alqı-satqısı və saxlanması üçün rəqəmsal platforma, "NM Soft" MMC-nin bulud əsaslı rəqəmsal klinika idarəetmə sistemi, "SALAMXPERT" MMC-nin süni intellekt əsaslı müəssisə resursları planlaşdırılması platforması, "AL Digital" MMC-nin qızıl və zərgərlik məhsulları üçün onlayn marketpleys, "TTC Service" MMC-nin "VmV App" brendi altında VPN servis xidməti, "Narchin" MMC-nin rəqəmsal yük daşıma platforması, "RR Company" MMC-nin onlayn hüquq xidmətləri üçün mobil tətbiq layihələri üçün təqdim edilib.

"Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir. Layihələri inkişaf mərhələsində olan mikro və kiçik sahibkarlıq subyektləri "Startap" şəhadətnaməsi üçün KOBİA-ya müraciət edə bilərlər.

● Əmir Mustafayev - 90

# İstedadlı yazıçı, tanınmış jurnalist

**Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin çoxu - istər nasir olsun, istər şair - dövrünün qəzet və jurnallarında, nəşriyyat və ədəbi-bədii dərgilərdə işləyə-işləyə maraqlı roman, povest, hekayə, şeir və publisistik yazıları ilə oxucuların qəlbinə də yol tapmışlar. Onlardan biri də bu günlər ədəbi aləmdə, ölkəmizin elm və təhsil müəssisələrində, xüsusən kütləvi informasiya vasitələrində 90 illik yubileyi qeyd edilən Azərbaycan ədəbiyyatının və mətbuatının tanınmış yazıçı-jurnalisti Əmir Mustafayevdir.**



Azərbaycan ədəbiyyatında və jurnalistikasında özünəməxsus yaradıcılıq üslubu ilə seçilən Əmir Gülbala oğlu Mustafayev 1936-cı il martın 12-də Qusarın qədim Xuluq kəndində dünyaya göz açmışdı. Qusar şəhərindəki 4 saylı beynəlmiləl orta məktəbi bitirdikdən sonra Bakıya gəlmiş, ADU-nun (indiki BDU) Filologiya fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra Moskva Komsomol Məktəbində, sonra isə Bakı Ali Partiya Məktəbində təhsil alsa da, ədəbi fəaliyyətini davam etdirmək, qələmindən ayrılmamaq üçün respublikanın bir sıra mətbuat orqanlarında çalışmışdır. Bu seçim təsadüfi deyildi. Ə.Mustafayevin hələ universitetin ikinci kursunda oxuyarkən "Azərbaycan gəncləri" qəzetində "O gəldi" adlı hekayəsi dərc olunmuş və o, ədəbi aləmdə böyük rezonans yaratmışdı. Əmir müəllim illər öncə yaradıcılığı ilə əlaqədar məqalə hazırlayanda "Ədəbiyyata gəlişinizi necə xatırlayırsınız?" sualını belə cavablandırmışdır: "Ədəbiyyata gəlişim orta məktəb illərində Səməd Vurğunu görməyimlə və onun əsərlərinə olan məhəbbətimlə bağlıdır. Yaradıcılığa şeirlə başlamışam, təkəmseyrək də çap olunmuşam. O zaman mən yaşda olan cavanların poetik nəfəsi ilə, bədii ilhamı ilə indi özümü müqayisə eləyəndə başa düşürəm ki, niyə şair ola bilmədim".

Bundan sonra tələbə-yazıçının respublikanın nüfuzlu mətbu orqanlarında işıq üzü görən "Xəcalətli baxışlar", "Qonşu", "Sonuncu kürsü" və başqa hekayələri də oxucular tərəfindən rəğbətlə qarşılanmış, ustad yazıçıların diqqətini çəkmişdi. Həmin vaxtdan etibarən Ə.Mustafayev həm də Əmir Qaraçəmənli imzası ilə hekayə, oçerk və publisistik yazıları ilə dövri mətbuatda çıxış etmişdir.

Əmir Qaraçəmənlini ədəbi aləmdə daha çox tanıdan 1957-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çap olunan "Zolaqlı çamadan" hekayəsi olmuşdur. O zaman belə yaradıcı tələbələr onun oxuduğu fakültədə tək deyildi. Əmir Mustafayevin 1953-1958-ci illərdə universitetin Filologiya fakültəsinin nəzdində Jurnalistika şöbəsində təhsil aldığı qrup Azərbaycan ədəbiyyatına və elminə Yaşar Qarayev, Arif Səfiyev, Famil Mehdi, Firudin Ağayev, Şamil Salmanov, Ağacavad Əlizadə, Cəfər Cəfərov, Tofiq Hacıyev, Hüseyn Kürdoğlu, İbrahim Göyçaylı kimi tanınmış simalar bəxş etmişdir.

Ötən əsrin 50-ci illərində, sovet hakimiyyətinin kəsəkəs vaxtında Əmir Mustafayev Azərbaycan kəndinin sosial-mənəvi problemlərini, kənd adamlarının ziddiyyətli yaşam tərzini, baş verən ictimai prosesləri ustalıqla qələmə almış, müasir gəncliyin ata və analarından, nənə və babalarından eşitdikləri sovet kəndinin təsərrüfat həyatını, kolxoz və sovxoz işini, bununla bağlı insanların psixologiyasında olan təbəddülatları aydın və prinsipial yazıçı mövqeyindən özünəməxsus koloritlə təsvir etmişdir. Araşdırmalardan görünür ki, yazıçının diqqət mərkəzində həllini gözləyən sosial problemlər, sadə zəhmət adamlarının ailə və məişət qayğıları, insan mənəviyyatının təkamülü prosesi durur. Bu həm də ondan irəli gəlir ki, müəllif özü də kənd adamı idi, problemlərin içində böyüdüyündən həmin mühiti yaxşı bilirdi.

Sovet quruluşunun ədalətsizliyi və azərbaycanlıların soyqırımına yönəlmiş siyasəti yazıçının bir sıra hekayələrində böyük ustalıqla oxuculara çatdırılır. Müəllifin "Qurd ürəyi" kitabında eyniadlı roman, povest və hekayələr cəmləşib. Bu hekayələrdə 1937-ci ilin qanlı-qadalı repressiya qurbanlarından, qanunsuzluqlar, ədalətsizliklər hesabına qan dənizində boğulan insanların yurd sevgisi və acı taleyindən bəhs edilir. Yazıçı boya-başa çatdığı Xuluq kəndindən Qazaxıstan çöllərinə sürgün edilən bir ailənin timsalında xalqın taleyindən söz açır. Yazır ki, Türkiyədə təhsil görmüş ziyalılarımızdan olan Xuluq kəndinin qazısı Əbdülməcid Əfəndi, sən demə, 1913-cü ildə kənd məktəbində müəllim işləyən şair Əhməd Cavadın dostu olub. Qazının zəngin kitabxanası var idi. Dişi qana batmış NKVD-çilər Əbdülməcid Əfəndini həbs edərkən ərəb, türk alimlərinin evdə tapılan kitablarını onun özünə kisələrə doldurtdurub belinə şələləyirlər. Yaşlı Əbdülməcid Əfəndi kitab dolu kisə belində, payi-piyada milis atlılarının qabağında kənddən birbaşa rayon mərkəzinə - NKVD-yə aparılır və dindirilir. Özü sürgün edilir, mülkü, kənd uşaqlarının təhsil alması üçün tikdirdiyi üçsinifli məktəb müsadirə olunur. Bu zaman onun təmiz adam olduğunu söyləməyə cəhd göstərən Gülbala (müəllifin atası) özünü həbsdən zorla qurtara bilir. Sonra da Qazaxıstan zülmləri başlanır... Bu mənada yazıçının repressiya illəri qəhrəmanlar qalereyası rəngarəng və yaddaqalandır.

Əmir Mustafayevin ədəbi-bədii yaradıcılığı qədər zəngin olan həm də onun jurnalistlik fəaliyyətidir. Əli qələm tutandan, xüsusən də tələbəlik illərindən gecələr yazıçılıqla, gündüzlər jurnalistliklə məşğul olmuş Əmir müəllim 1957-ci ildə universitetin dördüncü kursunda oxuyarkən işləmək üçün dövrün ən tirajlı mətbu orqanlarından olan "Azərbaycan pioneri" qəzetinə dəvət alıb. 1957-ci ildən 1969-cu ilə kimi həmin redaksiyada ədəbi işçi, şöbə müdiri, 1971-1976-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında məsul katib, 1976-1979-cu illərdə isə Azərbaycan Yazıçılar İttifaqının orqanı olan "Azərbaycan" jurnalında məsul katib vəzifələrində çalışmışdır. Bir müddət Cəfər Cabbarlı adına kinostudiyada ssenarist kimi çalışsa da, sonradan yenidən "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasına qayıtmışdır. Ədəbi yaradıcılığının və jurnalistlik fəaliyyətinin uğurlarını qəzet-jurnal redaksiyalarında reallaşdıran Əmir Mustafayev "Azərnəşr"də Bədii ədəbiyyat şöbəsində müdir, 1990-cı illərdə "Karvan" kitablar seriyası redaksiyasında məsul katib işləmişdir. Hansı mətbu orqanda, hansı kollektivdə çalışmasından asılı olmayaraq, Əmir Mustafayev ədəbiyyatın və jurnalistikanın fədaisi olmuşdur.

Əmir Mustafayevin istər yazıçı kimi, istər jurnalist kimi qələmə aldığı iri-li-xırdalı bütün əsərləri, məqalələri və publisistik yazıların talelərini həyatdan, həyat həqiqətlərindən götürmüşdü. O, bu cür həyatın içindən və reallıqlarından gələn 5 romanın, 20 povestin, 200 hekayənin, 500-dən artıq publisistik yazının və müxtəlif səpkili məqalələrin müəllifidir. Bir neçə povest və hekayəsi Türkiyədə, İranda, İraqda və Rusiyada nəşr edilmişdir. Bu kitabların hər biri ürəklə yazıldığından, həyat hadisələrindən söz açdığındandır ki, oxucuların ürəyinə rahatlıqla yol tapır.

Cavan yaşlarında "Azərbaycan pioneri" qəzetində sıravi müxbirliklə jurnalist fəaliyyətinə başlayan Ə.Mustafayev ömrünün sonunacan bu peşədən ayrılmamışdır. Hətta yazıçı kimi yaradıcılığının pik dövründə də o özünü jurnalist hesab edirdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində, daha dəqiq desək, 1993-cü ildə Əmir müəllimin yaradıcılıq və xidməti taleyi rəsmi dövlət qəzeti "Azərbaycan"la bağlanmışdır. Onun bu qəzetə baş redaktor təyin edilməsi yenicə müstəqilliyə qovuşmuş dövləti düçar olduğu bəlalardan xilas etmək üçün xalqın tələbi ilə ölkə rəhbərliyinə qayıdan Heydər Əliyevin təşəbbüsü olmuşdur. Əmir müəllim həmişə bununla fəxr edirdi.

Oxucuların və həmkarlarının sevimlisi olan Əmir Mustafayev, sözün həqiqi mənasında, gözəl insan, yaxşı yazıçı və peşəkar jurnalist idi. O, yazıçı və jurnalist kimi rəsmi nümayəndə heyətinin tərkibində Türkiyədə, Kiprdə, Çində və digər ölkələrdə səfərlərdə olmuşdu. Yeri gəlmişkən, qeyd edək ki, ictimai xadim Əmir Mustafayev respublikamızın ilk ziyalılarındandır ki, 1998-cu ilin dekabrında "Tərəqqi" medalı təsis olunduqdan sonra ilk dəfə bu medala ədəbiyyat və jurnalistika sahəsində göstərdiyi xidmətlərinə görə layiq görülmüşdür. O, Prezident təqaüdçüsü idi.

Jurnalist fəaliyyətindən qürur duyan tanınmış yazıçı, peşəkar jurnalist Əmir Mustafayevin Azərbaycan reallıqlarına, xalqımızın birliyinə, ölkəmizin milli müstəqilliyinin və ərazi bütövlüyünün toxunulmazlığına xidmət edən əsərləri və məqalələri bundan sonra da əsl qələm sahiblərinə örnək olacaq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Kiyevdə Azərbaycana dair esse müsabiqəsinin qalibləri mükafatlandırılıb

**Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən esse müsabiqəsinin qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, Ukraynanın nüfuzlu ali məktəblərin 200-ə yaxın tələbəsinin iştirak etdiyi müsabiqədə Azərbaycanın Zəfər tarixi, suverenliyi, iki ölkə arasında tarixi münasibətlərə dair müxtəlif mövzular üzrə esse yazılıb.

Müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimi ilk olaraq Taras Şevçenko adına Kiyev Milli Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunda keçirilib. Mükafatlandırılma mərasimindən öncə geniş auditoriya qarşısında çıxış edən ölkəmizin Ukraynadakı səfiri Seymur Mərdəliyev Ukrayna-Azərbaycan əməkdaşlığının inkişafı kontekstində gənclərlə işin əhəmiyyəti barədə danışıb. Qeyd edib ki, müsabiqənin qalibləri arasında gələcək diplomatlar da var. Bəlkə də gələcəkdə bu gənclər ölkələrimiz arasında əməkdaşlığın inkişafında iştirak edəcəklər. Sonra institutun direktoru Valeri Kopeyka çıxış edərək qeyd edib ki, ölkələrimiz həmişə bir-birinə dost olub, Ukrayna ilə Azərbaycan arasında münasibətlər strateji xarakter daşıyır və dövlətlərimizin rifahı naminə inkişaf edir.

Çıxışlardan sonra müsabiqənin qalibləri mükafatlandırılıb.

Müsabiqənin qaliblərinin mükafatlandırma mərasimi daha sonra Kiyev Politexnik İnstitutunda keçirilib. Mərasimdən əvvəl səfir və ali təhsil ocağının rektoru Anatoli Melniçenko arasında görüş keçirilib. Görüşdə Azərbaycan və Ukrayna ali təhsil ocaqları arasında əməkdaşlığın inkişafının vacibliyi vurğulanıb. Sonra səfir qalibləri mükafatlandırıb.

Müsabiqənin qalibi Katarina Mamoşina çıxışında Azərbaycan səfirliyinin dəstəyi ilə təşkil edilən ümumukrayna müsabiqəsində iştirak etmək imkanına görə təşəkkür edib. "Bu gün ölkənin suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək tammiqyaslı müharibə kontekstində çox vacib bir mövzudur. Bu məsələ həm Ukrayna, həm də Azərbaycan üçün həqiqətən də vacib bir mövzudur. Belə müsabiqələr Azərbaycan və Ukrayna arasında əməkdaşlığın inkişafına töhfə verir", - deyə Katarina Mamoşina əlavə edib.

Müsabiqənin daha bir qalibi Dmitro Kovtun qeyd edib ki, bu cür müsabiqənin keçirilməsi Ukrayna ilə Azərbaycan arasında əməkdaşlığın hüquqi çərçivəsini, eləcə də bugünkü dünyada ərazi bütövlüyü və suverenliyi məsələlərini daha da araşdırmaq imkanı verir. "Mən bu müsabiqədə iştirak etməklə Azərbaycanı daha yaxından öyrənmək imkanını əldə etdim. Bu fürsəti yaratdığına görə, Azərbaycan dövlətinə təşəkkürümü bildirirəm", - deyə o əlavə edib.

**2026** *Şəhərsalma və Memarlıq İli*

# Azərbaycanın qədim və Orta əsrlərdə şəhərsalma tarixi



**"Arxeoloji tədqiqatlar şəhərsalma prosesinin Azərbaycanda Tunc dövrünə təsadüf etdiyini və erkən əkinçi cəmiyyətin tərəqqisi nəticəsində təşəkkül tapdığını təsdiqləyir. Azərbaycanda şəhər mədəniyyətinin inkişafında Atropatena və Albaniya dövlətlərinin fəaliyyəti mühüm mərhələ olub. Yazılı mənbələrdə Albaniyada 29 şəhər və iri yaşayış məskəninin mövcudluğu əksini tapıb. Albaniyanın paytaxtı olmuş Qəbələdə genişmiqyaslı arxeoloji qazıntılar aparılıb, qədim şəhərin tikililəri üzə çıxarılıb. Qəbələnin arxeoloji memarlığı Albaniyanın antik şəhərsalma və memarlığının başlıca xüsusiyyətlərinin dərk olunmasına imkan yaradır".**



Bu fikirlər Bakı Dövlət Universitetinin Arxeologiya və etnoqrafiya kafedrasının müdiri Tarix Dostiyevin AZƏRTAC-a təqdim etdiyi "Azərbaycanın qədim və Orta əsrlərdə şəhərsalma tarixi" adlı məqaləsində yer alıb. Məqalədə qeyd olunur ki, Orta əsrlərdə Azərbaycanda müsəlman tipli şəhərlər formalaşıb. IX-X əsrlərdə bu proses sürətlənib, şəhərsalma fəaliyyəti genişlənib, şəhər həyat tərzi möhkəmlənib, sosial-psixoloji kontekst dəyişib, yeni tip şəhər formalaşıb. Müsəlman Şərqinin digər ölkələrində olduğu kimi, Azərbaycanda da artıq IX-X əsrlərdə müsəlman şəhəri üçün bütün səciyyəvi əlamətlər mövcud idi. Şəhərlərin əsasən üç topoqrafik hissədən - narınqala (iç qala), şəhristan (içərişəhər) və rabaddan (bayır şəhər) ibarət olması müsəlman cəmiyyətində baş verən sosial-iqtisadi proseslərlə şərtlənmişdi. Şəhər landşaftında məhəllə və Came məscidləri, minarələr və müsəlman memarlığının digər ictimai-dini binaları xüsusi önəm kəsb edirdi. Binaların tikintisində müsəlman memarlığı üçün səciyyəvi olan çatma tağlar, tağ-tavanlar, günbəzlər, çatma tağlı portallar, şəbəkəli pəncərələr, stalaktit karnizlər kimi konstruktiv elementlərdən, interyerin bədii tərtibatında gəc üzrə oyma bəzəklərdən geniş istifadə olunurdu.

Erkən İslam dövründə (VII-X əsrlər) formalaşan müsəlman tipli Azərbaycan şəhəri səlcuqlar dövründə çiçəklənmə çağını keçirib. Tədqiqatçılar XII əsrdə Azərbaycanda 70-ə yaxın şəhərin olduğunu müəyyənləşdiriblər. Həmin şəhərlərdən bəziləri - Təbriz, Ərdəbil, Marağa, Şamaxı, Naxçıvan, Dərbənd öz köhnə adlarını saxlayıb. Bu şəhərlərdə həyat indiyədək davam etməkdədir. Tarix səhnəsindən silindikdən sonra öz adını yaxın yaşayış məskəninə vermiş şəhərlər də az deyil. Qəbələ, Şabran, Gəncə, Şəmkir, Beyləqan bu qəbildəndir. Arxeoloji tədqiqata cəlb olunmuş bir sıra şəhər yerlərinin, o cümlədən Bəndovan, Şəhərgah və digər abidələrin hansı şəhərə mənsubluğu, onların tarixi adları müəyyənləşdirilməyib. I Bəndovan və II Bəndovan şəhər yerlərinin arxeoloji tədqiqinin özəlliyi ondadır ki, bu abidələrdə sahilkənarı ərazidəki qazıntılar sualtı axtarışlarla əlaqəli şəkildə aparılır. 1938-1940-cı illərdə qədim Gəncə şəhər yerində İsaq Cəfərzadənin rəhbərliyi ilə aparılmış tədqiqatlar Azərbaycanda şəhər arxeologiyası istiqamətində ilk ciddi nailiyyət hesab oluna bilər. Həmin tədqiqatlar nəticəsində toplanan maddi mənbələr hazırda da Orta əsr Gəncə şəhərinin səciyyəsi üçün başlıca mənbədir. Keçən əsrin 50-60-cı illərində Mil düzündə Orta əsr Beyləqan şəhər yerində aparılmış arxeoloji qazıntılar Azərbaycanın Orta əsr şəhərsalma və memarlığının öyrənilməsində mühüm hadisə olub. Oxşar genişmiqyaslı qazıntılar XXI əsrin birinci rübündə Şəmkir şəhər yerində aparılıb. Orada üzə çıxarılan arxeoloji memarlıq kompleksləri, mədəni təbəqələrin yatımından əldə olunan artefaktların kolleksiyası Orta əsr şəhər həyatını qabarıq əks etdirir.

Naxçıvan, Şamaxı, Bakı, Dərbənd şəhərlərində həyat bu günədək davam etdiyindən bu abidələrdə aparılan arxeoloji qazıntıları müasir şəhərsalma ilə əlaqələndirilir. Belə bir şəraitdə şəhərin müxtəlif hissələrində qazıntılar aparmaqla tarixi şəhərlərin ümumi mənzərəsini və inkişaf dinamikasını müəyyənləşdirmək mümkündür. Tarixi şəhərlərin özünəməxsus silueti şəhər yerlərində arxeoloqlar üçün üzə çıxardıqları memarlıq komplekslərinin, şəhərlərin plan quruluşunun müəyyənləşdirilməsində və düzgün şərhində olduqca əhəmiyyətlidir. Bu aspektdə İçərişəhər unikal abidədir. Müasir dünyada qədim və Orta əsr şəhər yerlərində arxeoloji qazıntı sahələrində üzə çıxarılmış komplekslərin qorunması, muzeyləşdirilməsi diqqət mərkəzindədir. Bu aspektdə genişmiqyaslı arxeoloji qazıntılar aparılan Şəmkir şəhər yerində tarixi-mədəni landşaftın, üzə çıxarılmış arxeoloji memarlıq komplekslərin, xüsusilə çiy kərpic memarlığı komplekslərinin konservasiya və muzeyləşdirilməsi şəhərsalma irsimizin daha etibarlı, uzunmüddətli qorunmasını təmin edər.





# Mədəniyyət



● Ədəbi simalarımız

## Zamanın övladı olmaqdan üstün çıxdı

**İstər sənətdə, istərsə də ədəbiyyatda bütün yaradıcı insanların öz yolu olur. Onlar yaradıcılıqları və ömürləri boyu özləri də hiss etmədən üzərilərinə düşən missiyanı yerinə yetirirlər. Yaratdıqları əsərləri ilə tanınır və sevilirlər.**

Yazıçı-nasir və dramaturq Nahid Hacızadənin də ədəbiyyat dünyasında, incəsənət aləmində öz missiyası olub. Görkəmli ədib yazdığı bir-birindən dəyərli əsərləri ilə bu işin öhdəsindən bacarıqla gəlib. Minlərin, milyonların sevgi və rəğbətini qazanıb.

Nahid Hacızadə 14 mart 1936-cı ildə Gədəbəyin Düzrəsullu kəndində dünyaya göz açmışdı. Uşaqlıq illəri çətinliklər içində keçmişdi. Anadan yetim qalsa da, heç vaxt taleyindən, insanlardan küsməmişdi, əksinə, həyatı daha çox sevmişdi. Bacarığı və əzmkarlığı ilə çətinlikləri dəf etmiş, onu qoynuna alan həyata alışmışdı. Olduqca zəngin, amma əzab-əziyyətlərlə dolu, çoxlarına nümunə olacaq ləyaqətli bir ömür yaşamışdı.

1955-ci ildə orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə qəbul olan Nahid bu tanınmış ali təhsil ocağında Əli Sultanlı, Cəfər Xəndan, Muxtar Hüseynzadə, Məmməd Cəfər, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib kimi görkəmli ədəbiyyatşünas alimlərdən dərs almışdı. Nahid üçün bu görkəmli şəxsiyyətlərlə təmasda olmağın özü böyük bir həyat məktəbi idi.

Nahid Hacızadə tələbəlik illərindən taleyini Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə bağlamışdı. 1959-cu ildən başlayaraq, burada müxbir, redaktor, şöbə müdiri, baş redaktor işləmişdi. Bacarığı və istedadı ilə sədrin birinci müavini vəzifəsinə qədər yüksəlmişdi. 20 il televiziyanın Ədəbi-dram verilişləri baş redaksiyasına rəhbərlik etmişdi. Bu illər ərzində bir-birindən dəyərli əsərlər yazmış, ədəbiyyatımızı daha da zənginləşdirmişdi.

Sonrakı illərdə Azərbaycan "Bilik-Maarifçilik" cəmiyyəti sədrinin müavini, "Dalğa" və "Gələcək" qəzetlərinin baş redaktoru olmuş N.Hacızadə Diplomatiya Kollecində (indiki Avrasiya Universiteti) mətbuat və informasiya mərkəzinin baş direktoru, "Şur" nəşriyyatının direktoru işləmişdi. Daha sonra Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru vəzifəsində çalışmışdı. Harada işləməsindən asılı olmayaraq, yaradıcılığından uzaq düşməmişdi.

Nahid Hacızadənin ədəbiyyata gəlişi 1969-cu ilə təsadüf edir. Həmin il onun "Ulduz" jurnalında "Lirik miniatürlər"i dərc olunmuşdur. İlk qələm nümunəsi olan bu müniatürlər sonrakı illər onun əlindən tutaraq pillə-pillə ədəbiyyatın zirvəsinə yüksəldib, yazıçıya bir-birindən dəyərli uğurlar qazandırıb. "Ulduz" jurnalından sonra Nahid Hacızadə müntəzəm olaraq "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət", "Sovet kəndi" qəzetlərində, "Azərbaycan" jurnalı və başqa mətbu



orqanlarda janrca bir-birindən fərqli olan, oxucu rəğbətini qazanmış əsərlər dərc etdirmişdir. Görkəmli yazıçının yaradıcılığının məhsulu olan hekayə, roman, povest və pyesləri oxucular tərəfindən maraqla qarşılanmış, müəllifinə böyük şöhrət gətirmişdir. Yazıçının hekayə və məqalələri keçmiş ittifaq dövründə çox məşhur olan "Oqonyok", "Nedelya", "Moskovski komsomolets" kimi mötəbər ədəbi orqanlarda çap edilmişdir.

Böyük maraq kəsb edən bədii əsərləri ilə oxucu qəlbinə asanlıqla yol tapan yazıçı-nasir Nahid Hacızadənin "Bir ana tanıyırdım" adlı ilk kitabı 1972-ci ildə çap olunmuşdu. Ondan sonra müxtəlif illərdə "Dağlar yuxuma girir", "Bir ürəyin çağırışı", "Ömür gözləmir bizi", "Məhəbbət ölüncə var", "Qərib axşamlar" və başqa kitabları ilə oxucularını sevindirmişdir. Bunlardan əlavə, Nahid dövrünün mötəbər "Sovetski pisatel" nəşriyyatında yazıçının "Dağlar yuxuma girir" və "Hələ gec deyil" kitabları çox böyük tirajla rus dilində çap olunmuşdur.

Bu gün də əsərlərini maraqla oxuduğumuz, pyeslərinə heyranlıqla baxdığımız Nahid Hacızadə eyni zamanda istedadlı dramaturq kimi tamaşaçıların sevimlisinə çevrilmişdir. Onun "Ömrün sorağında", "Ömür gözləyir bizi", "Məhəbbət yaşadır", "Köçündən ayrılan durna" pyesləri Şəki, İrəvan, Bakı və Ağdam teatrlarında səhnəyə qoyulmuşdur. "Qisas qiyamətə qalmaz" və "Məhəbbət yaşadır" pyesləri isə Akademik Milli Dram Teatrında tamaşaçılara təqdim olunmuşdur.

Nahid Hacızadə milli kinomuzun inkişafına da töhfə vermişdir. Onun ssenariləri əsasında 30-dan çox sənədli, bədii, televiziya və kino filmi çəkilmişdir. Onun "Yaşa, ey haqq" və "Qayalarda qalan səs", "Sevilin bacıları", "Muğan qızı", "Şamama", "Uzunömürlü ağaclar", "Tələbə avtoqrafları", "Bəxtiyar Vahabzadə", "Yurd yeri", "İstiqlal şairi" və başqa qısametrajlı sənədli televiziya və kino filmləri bu gün də maraqla baxılmaqdadır. Müəllifin "Son qəmin olsun, Vətən!", "Qayalarda qalan səs" və "Yaşa, ey haqq" filmləri bədii dəyərinə, yüksək sənətkarlığına görə Qızıl fonda daxil edilmişdir. Onun "Son qəmin olsun, Vətən!", "Torpağın yeddi ağısı", "Yaz gününün işığı", əsərləri ağrılı mövzumuz olan Qarabağa həsr olunmuşdur.

"Yada düşdü" xatirə kitabı Əməkdar mədəniyyət işçisi Nahid Hacızadənin yaradıcılığında xüsusi yer tutur. Adından da göründüyü kimi, yazıçı bu əsərində yaşadığı uzun və şərəfli ömür yolunu qələmə almışdı. Böyük səbirlə yazdığı "Xatirə" kitabı ilə ədib yaşanıb arxada qalmış ömür yoluna güzgü tutmuşdu. Keçdiyi ömür yolu ilə sevimli oxucularını da tanış etmişdi.

Filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev Nahid Hacızadə haqqında qələmə aldığı məqalələrinin birində oxucuları üçün maraqlı olacaq bir məqama toxunub: "Deyirlər, insan öz zamanının övladı olur. Burada bir həqiqət vardır. İnsan bəzən zamanın burulğanlarında, gündəlik qayğıların məngənəsində mütiləşir, sınır, zamanın hökmünə boyun əyərək dövrünün övladına çevrilir. Nahid müəllim "zamanın övladı" olmaqdan üstün çıxdı".

Görkəmli yazıçı, dramaturq və publisist Nahid Hacızadə uzun sürən xəstəlikdən sonra 2018-ci il yanvarın 18-də dünyasını dəyişib. Amma Nahid Hacızadə ölməz sənətkarlardandır. Görkəmli ədib yaxınlarının, doğmalarının və oxucularının yaddaşında işıqlı, nurlu çöhrəli bir insan kimi qalıb. Hər dəfə Xalq artisti Mübariz Tağıyevin ifasında "Qalx, qalx, ulu torpaq!" mahnısı səslənəndə yazıçı-nasir, dramaturq Nahid Hacızadənin işıqlı çöhrəsi gözlərimiz qarşısında canlanır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Sənət dünyası

## Milli teatrımızın çətin, amma şərəfli inkişaf yolu

**Azərbaycan xalqının mədəni irsində milli teatr sənəti xüsusi yer tutur. Bu sənətin kökləri çox qədim dövrlərə gedib çıxır. Hələ qədim zamanlardan xalq arasında müxtəlif meydan tamaşaları böyük maraq doğururdu.**

### Xalq tamaşalarından peşəkar teatra

Açıq havada - şəhər meydanlarında, kəndlərdə, bazarlarda, küçələrdə, karvansaralarda nümayiş etdirilən bu tamaşalar məzhəkə, nəqletmə, musiqi, rəqs, yarış və digər elementlərlə zəngin idi. Xalqın həyat tərzini, düşüncəsini və adət-ənənələrini əks etdirən bu səhnə nümunələri milli teatr mədəniyyətimizin formalaşmasında da mühüm rol oynayıb. Eyni zamanda Azərbaycan xalqının əsrlər boyu toy, elçilik, yas ənənələrində də teatr elementləri mövcud olub. Sonrakı dövrlər Azərbaycanda "Şəbih" və digər dini səciyyəli tamaşalar da geniş yayılıb.



Xalq arasında məşhur olan meydan tamaşaları - "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Tənbəl qardaş" kimi oyunlar, eləcə də "Kilimarası", "Maral oyunu" kimi kukla teatr tamaşaları insanlar tərəfindən böyük maraqla qarşılanıb. Həmin tamaşalar yalnız əyləncə deyildi, həm də xalqın milli-mənəvi dəyərlərini yaşadan mühüm mədəni hadisə idi.

Azərbaycana XVII əsrin ikinci yarısında səfər edən fransız səyyahı Jean Chardin gördüyü teatr səhnələrindən heyranlıqla bəhs edib. O, İrəvan şəhərində Çuxursəd bəylərbəyisinin iqamətgahında izlədiyi üç hissəli tamaşadan o qədər təsirlənib ki, bu sənət nümunəsini "Şərqin operası" adlandırıb. Bu fakt həmin dövrdə də Azərbaycan səhnə sənətinin inkişaf etdiyini göstərən maraqlı tarixi nümunələrdəndir.

Araşdırıcıların gəldiyi qənaət budur ki, mərasim və ayinlərdə, xalq oyunlarında mövcud olan səhnə elementləri sonradan müstəqil xalq teatrının formalaşmasına zəmin yaradıb. Beləliklə, XIX əsrdə peşəkar teatrın yaranması kimi mühüm mədəni hadisə baş verib.

Azərbaycan peşəkar teatrının əsası 1873-cü il martın 10-da qoyulub. Həmin gün Bakı realnı məktəbinin teatr həvəskarları truppası görkəmli dramaturq Mirzə Fətəli Axundzadənin səhnələşdirdikləri "Sərgüzəşti-vəziri-xani Lənkəran" pyesi ilə tamaşaçıların qarşısına çıxıb. Milli teatr tarixində dönüş nöqtəsi olan tamaşanın hazırlanmasında görkəmli maarifçi Həsən bəy Zərdabi və dramaturq Nəcəf bəy Vəzirov mühüm rol oynayıblar.

Sonrakı illərdə teatr sənətinin inkişafı üçün xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev Bakıda ilk teatr binasının inşası və digər təşəbbüsləri, dəstəyi ilə böyük xidmətlər göstərib. Ancaq teatr yalnız ayrı-ayrı şəxslərin səyi ilə yaşaya bilməzdi. Bu sənətin inkişafı üçün, ilk növbədə, cəmiyyətin qayğısı və sevgisi, sənət adamlarının böyük fədakarlıqları və ardıcıllarının onların yolunu eyni cəsarətlə, çətinliklərə sinə gərərək davam etdirmələri zəruri idi. O səbəbdən milli teatrın yolu heç də asan olmayıb. Maddi vəziyyətinin ağırlığı, dolanışıq dərdi teatr sənətini yaşadanların həyatının ayrılmaz hissəsinə, daimi qayğılarına çevrilib. Lakin bu da onların yeganə problemləri olmayıb. Xüsusilə XIX əsrin sonu və XX əsrin əvvəllərində səhnəyə çıxan aktyorların əksəriyyəti cəmiyyətin qınağı və təhdidləri ilə qarşılaşıblar. Əksər hallarda kiminsə aktyorluq sənətini seçməsi ailəsi və qohumları tərəfindən belə, yaxşı qarşılanmayıb. Odur ki, onları səhnəyə çıxdıqlarına görə təhqir edənlər, hətta hücumlara məruz qoyanlar arasında yaxın qohumları da olub. Buna baxmayaraq, bu sənəti ürəkdən sevən insanlar bütün çətinliklərə sinə gərərək teatrın yaşaması və inkişafı naminə mübarizə aparıblar.

### Cümhuriyyət dövründə milli teatra dövlət statusu verildi

Azərbaycan teatr sənəti onun əzab-əziyyətli yolundan keçən, cəmiyyətin qınaqlarına hədəf seçilməkdən, təqiblərə məruz qalmaqdan çəkinməyən onlarla, yüzlərlə sənətkarın sayəsində yaşayıb, inkişaf edib.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ölkənin mədəni həyatında da əlamətdar hadisəyə çevrildi. Həmin dövr teatr sahəsində də yeni mərhələ kimi tarixə yazıldı. Cümhuriyyət dövründə teatrın inkişafına xüsusi diqqət yetirilib, repertuarlara xalqın milli, tarixi və azadlıq mübarizəsini əks etdirən əsərlər daxil edilib. Cümhuriyyətin hakimiyyəti zamanında Azərbaycan Dövlət Teatrının təşkili milli səhnə sənətinin dövlət statusu alması baxımından mühüm hadisə idi. 1918-ci il noyabrın 4-də həmin teatrın səhnəsində Nəriman Nərimanovun "Nadir şah" faciəsi ilk tamaşa kimi nümayiş etdirilib.

Cümhuriyyət illərində teatr truppaları yenidən fəaliyyətə başlayıb. Onlardan biri "Hacıbəyli qardaşları" olub. Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Hacağa Abbasov, Mirzağa Əliyev, Əhməd Ağdamski, Rza Darablı, Sidqi Ruhulla, Muxtar Məhəmmədzadə, Məmmədtağı Bağırzadə, Ələkbər Hüseynzadə, Bağır Kazımovski, Məğfurə xanım, Yeva (Yevgeniya) Olenskaya və başqalarının daxil olduğu bu truppa həftədə üç gün dram, komediya, opera və operetta tamaşaları ilə teatrsevərlərin qarşısına çıxıblar. Truppanın repertuarında olan "Gavey-ahəngər", "Dağılan tifaq", "Pəri-cadu", "Axşam səbri xeyir olar", "Ağa Məhəmməd şah Qacar", "Arşın mal alan", "O olmasın, bu olsun", "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu", "Aşıq Qərib", "Evliykən subay", "Şah İsmayıl" və başqa tamaşalar onlar tərəfindən rəğbətlə qarşılanıb.



### Keçmişin məşəqqətləri, bu günün uğurları

Sonrakı dövrdə - sovet hakimiyyəti illərində də Azərbaycan teatr sənəti inkişafını davam etdirib. Həmin dövrdə teatrlarımızın repertuarında müxtəlif ideoloji əsərlərlə yanaşı, xalqın tarixi və həyatından bəhs edən tamaşalar da yer alıb.

XX əsrin sonlarında Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Böyük çətinliklərlə əldə olunan müstəqilliyimizin ilk illərində bütün sahələrdə olduğu kimi, teatr sənəti də böhranla üzləşdi. Amma o, bu dəfə də sınaqlardan çıxmağı bacardı və Azərbaycan teatrı yeni mərhələyə qədəm qoydu. Dövlət qayğısı və tamaşaçı sevgisi sayəsində teatrlarımız fəaliyyətini genişləndirərək müasir səhnə əsərləri ilə çıxış etməyə başladılar.

Milli teatrımız uzun və keşməkeşli inkişaf yolu keçsə də, öz ənənələrini qoruya bilib. Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Əliağa Ağayev, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Mərziyə Davudova, Həqiqət Rzayeva, Qəmər Almaszadə və başqalarının böyük çətinliklərlə yaratdıqları və yaşatdıqları teatr sənətimizi bu gün istedadlı dramaturqlarımız, rejissorlarımız, aktyor və aktrisalarımız davam etdirirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Balacalar sevinəcəklər

**Azərbaycan Dövlət Kukla Teatrında martın 14-də "Quyruqsuz dovşan" tamaşasının premyerası baş tutacaq. Rus ədibi Nikolay Nikolayeviç Lisinin bu pyesi əsasında (tərcümə edəni Zümrüd Quliyeva) hazırlanan eyniadlı səhnə işinin quruluşçu rejissoru Müşfiq Əliyev, quruluşçu rəssamı Rəna Abbasovadır.**

Tamaşada obrazları Əməkdar artist Cəmilə Allahverdiyeva, aktyorlar Rəhim Rəhimov, Elnur Xəlilov, Yusif Baxşəliyev, Məmmədşah Təhməzov, Elnarə Hacıyeva, Səbinə Məmmədova və Bayram Ağamalıyev canlandıracaqlar.

Kukla Teatrının Mətbuat xidmətindən bildirilib ki, özünəinam və fərqlilikdən utanmamaq kimi ideyanı ana xətt kimi ön plana çıxaran əsərdə hadisələr sadə hekayətin komik həlli ilə bitir: "Belə ki, tamaşa dovşanın ehtiyatsızlıq və maraq ucbatından quyruğunu itirməsi ilə başlayır. Qəhrəman quyruqsuz qaldığı üçün çox utanır, kədərlənir və digər heyvanlardan fərqli olduğunu düşünərək özünü pis hiss edir. Bəzi heyvanlar ona gülür, bəziləri isə ona kömək etməyə çalışırlar. Hadisələr zamanı dovşan anlayır ki, fərdi dəyərli edən onun zahiri görünüşü yox, daxili keyfiyyətləri və davranışıdır".



Psixoloji alleqoriya kimi çıxış edən tamaşanın əsas konflikti zahiri hadisədən - quyruğun itirilməsindən doğsa da, əslində, bu, qəhrəmanın özünü anlaması və olduğu kimi qəbul etməsi ilə başa çatır. Dovşanın səhnə boyu düşdüyü vəziyyətlər - sevinc, həyəcan, utanmaq hissi, böhran və sonda özü ilə barışması səhnə işinin əsas dramatik xəttini təşkil edir.

Tamaşa tragikomik vəziyyətlərə düşən dovşanın dostlarının səyləri nəticəsində quyruğuna qovuşması ilə başa çatır.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Milli Xalça Muzeyində "Alaca" toxuculuq kollektivinin VI sərgisi açılıb



**Sərgi Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Xalça Muzeyi, Memar Sinan İncəsənət Universiteti, İstanbul Xalça İxracatçıları Birliyi (İHİB), Yunus Əmrə İnstitutu və "Alaca" toxuculuq kollektivinin təşkilatçılığı ilə keçirilib.**

Tədbirdə Azərbaycan Milli Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Əminə Məlikova, mədəniyyət nazirinin müavini Səadət Yusifova, Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün, Bakı Yunus Əmrə İnstitutunun koordinatoru Gökhan Seyhan, "Alaca" toxuculuq kollektivinin təsisçisi və Memar Sinan İncəsənət Universitetində ənənəvi türk sənəti ixtisası müəllimi, doktor Esen Baydemir çıxış edərək Azərbaycan və Türkiyə arasında mədəni əməkdaşlığın əhəmiyyətini vurğulayaraq toxuculuq sənətinin ortaq irs kimi qorunması və gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd ediblər. Onlar həmçinin belə layihələrin ənənəvi sənətlərin müasir incəsənət mühitində yeni ifadə imkanları qazanmasına töhfə verdiyini bildiriblər.

Tədbirin bədii hissəsində "Səma" rəqs ansamblı Azərbaycan və Türkiyə milli rəqslərini ifa edib.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

"Alaca" sərgisi toxuculuq sənətini yalnız maddi mədəni irs nümunəsi kimi deyil, eyni zamanda vizual düşüncə və kollektiv yaddaş forması kimi təqdim edir. Sərgidə 23 rəssamın müxtəlif mövzu və texnikalarda yaratdığı 38 əsər nümayiş olunur. Bu əsərləri birləşdirən əsas ideya toxuculuğun yaddaş daşıyıcısı kimi dərk edilməsidir. Müəlliflərin Azərbaycan mədəni irsinə, xüsusilə milli ornamentlərinə və zəngin rəng koloritinə müraciəti yeni vizual ifadə formalarının yaranmasına zəmin yaradıb. Bu yanaşma sərgini yalnız estetik təqdimat deyil, həm də müxtəlif coğrafiyaları və mədəni mühitləri birləşdirən ortaq toxuculuq irsi üzərindən qurulan ünsiyyət platformasına çevirir.

"Alaca" layihəsi toxuculuğa statik irs nümunəsi kimi yanaşmadan uzaqlaşaraq onu yaşayan, daim yenilənən və fərqli mədəniyyətləri bir araya gətirən dinamik bədii dil kimi dərk etməyə çağırır.

Sərginin Azərbaycan Milli Xalça Muzeyində təqdim olunması məkanın tarixi-mədəni kontekstini layihənin ideyası ilə üzvi şəkildə əlaqələndirir. Bu layihədə muzey yalnız ekspozisiya sahəsi kimi deyil, ənənə ilə müasirlik arasında dialoqun fəal iştirakçısı kimi çıxış edir.

"Alaca" toxuculuq kollektivi 2022-ci ildə ənənəvi toxuculuq sənətini müasir bədii axtarışlarla sintez edərək onu yeni baxış bucağından təqdim etmək məqsədilə təsis olunub. "Alaca" anlayışı müxtəlif rənglərin öz fərdiliyini qoruyaraq vahid kompozisiyada harmonik bütövlük yaratmasını ifadə edir. Sərgi martın 15-dək davam edəcək.

● Vətən oldu oğullar

# Qısa ömrə sığan böyük qəhrəmanlıq

## Birinci Qarabağ müharibəsinin 21 yaşlı şəhid Milli Qəhrəmanı Elgiz Kərimovun döyüş gündəliyi

**Təbiətin ən təzadlı vaxtıdır mart ayı. Bir tərəfdən, qışın son nəfəsi olan sərt şaxta insanın iliyinə işləyir, digər tərəfdən isə, torpağın altından gələn gizli oyanışın, ilk bənövşənin titrək baş qaldırmasının təkanı hiss olunur. 1992-ci ilin 12 mart səhəri də Qarabağda məhz belə bir tərəddüdlə açılmışdı. Havada həm barıt, həm də rütubət qoxusu var idi. Digər tərəfdən isə, günəşin solğun şəfəqləri ətrafa ılıq bir ahəng qatmışdı.**



Həmin gün 21 yaşlı Elgiz pəncərənin önündə dayanıb xeyli ətrafı seyr etdi. Sonra isə artıq neçə vaxtdır vərəqləməyə imkan tapmadığı gündəliyini əlinə alıb indiyə qədər qələmə aldığı döyüş xatirələrinə ötəri nəzər saldı.

Eh, üzü sürtülmüş bu dəftər, sadəcə, xatirələrin, yaşananların söz ünvanı deyil, Elgizin qanla, barıt qoxusu ilə yazılmış ömür yolu idi. Pəncərəni taybatay açanda içəri dolan soyuq mart havası gəncin ağlına doğmalarını gətirdi. Anasının onu cəbhəyə yola salanda, doluxsunmuş halda "Bir dayan, a bala, boy-buxununa doyunca baxım" deməsi gəldi qulağına... Yaman qəribsədi... Xəyalən bir anlıq doğulub boya-başa çatdığı Bərdəyə doğru qol-qanad açdı... Amma dərhal da müharibənin sərt və amansız gerçəkliyinə qayıtdı... O an ürəyinə nə gəldisə elə pəncərənin sürahisinə dirsəklənib özü də bilmədən gündəliyinə sonuncu cümləsini həkk etdi:

"...1992-ci il mart ayının 12-də müdafiə, gözləmə mövqeyindən çıxıb hücuma keçdik. Düşmən tərəfi çoxlu canlı qüvvə itirdi…"

...Və qələm dayandı. Üç nöqtə...

Cümlənin sonuna qoyulan o üç nöqtə sanki Elgizin taleyinin növbəti dayanacağı idi. O üç nöqtə bir azdan başlayacaq fırtınanın, fədakarlığın və sonsuzluğun simvolu olacaqdı.

Beləcə, kağız üzərindəki mürəkkəb hələ qurumamış, zamanın çarxı Elgiz üçün başqa bir səhifəni - həyatın ən ağır sınaq səhifəsini açdı. O, gündəliyi ehtiyatla qatlayıb cibinə qoydu. Daha pəncərədən baxan o xəyalpərəst gənc getmiş, yerinə hər anını, canını belə Vətənə fəda etməyə hazır olan igid döyüşçü gəlmişdi. Otaqdakı sükutu qəfildən gələn kəskin bir əmr parçalamış və onu ölümün gözünə dik baxmağa dəvət etmişdi.

Həmin gün Azərbaycanın Milli Qəhrəmanı Elgiz Kərimov növbəti və həyati əhəmiyyətli səfərinə hazırlaşmışdı.

Tapşırıq gəlmişdi: vaxt itirmədən özünü mühasirəyə düşən döyüş yoldaşlarına çatdırmalı, nəyin bahasına olursa-olsun, onları xilas etməliydi.

Bəli... Artıq Elgiz üçün sözlərin bitdiyi, əməllərin danışdığı an gəlmişdi.

### Şərəfli bioqrafiya

Elgiz Kərimov 1971-ci il yanvarın 5-də Bərdə rayonunda anadan olub. Orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılıb. O, 1989-cu ildə əsgəri xidmətdən doğulduğu Bərdəyə qayıdanda Vətənin od tutub alışmağa başladığı, soydaşlarımızın kütləvi şəkildə Ermənistandan deportasiya olunduğu, torpaqlarımızın düşmən hücumlarına məruz qaldığı ağır vaxtlar idi. Bu haqsızlıqların şahidi olan bütün vətənpərvər gənclərimiz kimi Elgizin də qanı qaynayır və qərara gəlir ki, düşməndən qisas almaq üçün silaha sarılmalıdır. Buna görə də o, 1991-ci ildə Bərdə könüllü özünümüdafiə batalyonuna adını yazdıraraq torpaqlarımızın müdafiəsinə yollanır.

"Bu mənəm, Elgiz" sənədli filmində həmin günləri xatırlayan Vahid Əhmədov deyir ki, ermənilər Dağlıq Qarabağ iddiası qaldıran zaman könüllü özünümüdafiə batalyonları yaradılırdı. Onlardan biri də Elçin Əliyevlə birlikdə yaratdıqları Bərdə batalyonu olub: "O zaman batalyona çoxlu könüllülər gəlirdi. Döyüşməyə hazır olan həmin könüllülərdən biri də Elgiz Kərimov idi. Elgiz rus ordusunda xidmətini başa vurub 4-5 gün olardı ki, Vətənə qayıtmışdı. Elə rus ordusunda geydiyi formada da hərbi hissəyə gəlmişdi. O, ordudakı kimi nizam intizamını burada da davam etdirirdi. Təlimlərdə nümunəvi əsgər kimi həmişə özünü göstərirdi".

Bərdə batalyonu Ağdamın müdafiəsinə gedir. Həmin vaxt batalyona 2 ədəd BMP verilir və rus ordusunda tankçı kimi xidmət göstərmiş Elgiz Kərimov və Səfiyar Behbudov (Milli Qəhrəman) həmin hərbi texnikaları idarə etməyi üzərlərinə götürürlər.

1992-ci il martın 12-də mühasirəyə düşmüş döyüşçü yoldaşlarını xilas etmək üçün Elgiz Kərimov Naxçıvanik kəndində döyüşə girir. Bir saata yaxın davam edən ağır vuruşmadan sonra ermənilərin mühasirəsi yarılır, döyüşçülərimiz azad edilir. Əfsus ki, Elgiz özü həmin döyüşdən sağ çıxmır. Vətənin sadiq oğlu Elgiz Kərimov şəhidlik zirvəsinə ucalır.

İgid döyüşçünün nəşi doğulduğu Bərdədə dəfn edilir. Azərbaycan Prezidentinin 7 iyun 1992-ci il tarixli fərmanı ilə Kərimov Elgiz Kərim oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülür. 1994-cü ildən Bərdə şəhər 4 saylı tam orta məktəb Milli Qəhrəmanın adını daşıyır.

### Əfsanəvi döyüşçü

Elgiz Kərimovun qəhrəmanlıqlarla dolu döyüş yolu bütün hiss və həyəcanı, cəsarəti, hünəri, qorxmazlığı ilə qələmə aldığı gündəliyində əks olunub.

Cəsur döyüşçünün gündəliyi sanki dil açıb Qarabağın o qan-qadalı günləri ilə bağlı dəqiq məlumat verir. Elgizin döyüş gündəliyi belə başlayır: "...Bu gün 1991-ci ilin yanvar ayının 5-i ad günümdür. 20 yaşım tamam olur. Dostlarım dedilər ki, silahı qoy yerə. Qoymadım. Çünki ermənilər Əsgəran səmtdən amansızlıqla hücuma keçmişdilər. Biz onları geri qayıtmağa məcbur etdik. Ad günümə hədiyyə isə üç nəfəri əsir götürməyimiz oldu..."

Öyrənirik ki, Elgiz Kərimov Əsgəran yaxınlığında gedən şiddətli döyüşlər zamanı xüsusi fəallıq göstərir, yoldaşları ilə bir yerdə xeyli sayda erməni yaraqlısını məhv edir və düşmən əsgərlərini əsir götürür. Həmin döyüşlə bağlı Elgiz Kərimov yazır: "...Onlardan biri rus idi. Yekəpər olmasına baxmayaraq, uşaq kimi ağlayırdı: "Ermənilər bizi satın alıblar" deyirdi. İkincisi Qarabağ haqqında anlayışı olmayan gəlmə "dığa" gah ingiliscə, gah da fransızca danışırdı. Üçüncüsünü isə yaxşı tanıyırdım. Həyətimizdə fəhlə işləmişdi. O, mənə yalvarır, imdad diləyirdi. Soruşdum: "Heç utanırsan?" Cavab verdi: "Utanmaq azdır, ölüm yaxşıdır. Allah şeytana lənət eləsin".

Daha sonra Elgiz Kərimov çörəyimizi yeyib bizə xəyanət edən düşmənə nifrətini bu sözlərlə qələmə alıb: "Şeytan isə onun qan, din, dil, əqidə, məslək tayfalarıydı".

Müharibə davam edirdi, hər gün qanlı döyüşlər gedirdi. Cəbhədə vəziyyətin günbəgün ağırlaşdığını görən Elgizin ürəyinə nəsə damır və o bir gün icazə alıb evlərinə baş çəkməyə, ata-anası, bacı-qardaşları ilə görüşməyə yollanır. Ailəsi ilə ağrılı, kədərli hisslər oyadan son görüşünü Elgiz bu sözlərlə gündəliyinə həkk edir: "Atam qurban kəsdi. Anam nəzir dedi. Onun bu dünyada ən böyük arzusu mənim toyumu görmək idi. Heç demə, qonşu qızının "hə"sini də alıbmış..."

Amma Elgizin planları başqa idi... Vətəni ağ günə çıxarana, azadlığına qovuşdurana qədər bəylik libası geyinmək fikri yox idi...

Buna görə də üç gündən sonra doğmaları ilə vidalaşıb yenidən xidmət etdiyi hissəyə qayıdır. Gündəliyində düşmənin getdikcə azğınlaşdığını yazan Elgiz qeyd edir ki, ermənilər daha da vəhşiləşmişdilər: "Şuşanın səmasında sərnişin vertolyotunu vurub, 43 nəfəri öldürürlər. Kərkicahanı hər gün, hər gecə atəşə tuturlar. Xocalıya açıq-aşkar qənim kəsilmişdilər. Xankəndi ilə Əsgəran arasında əlaqə kəsilmişdi".

Gərgin döyüşlərdə iştirak edən gənc döyüşçü Cəmilli kəndinin müdafiəsi zamanı ağır yaralanır, düz üç ay özündə olmur. Müalicələrdən sonra bir az özünə gələn kimi, yenidən cəbhəyə döyüş yoldaşlarının yanına qayıdır.

"Yenidən silahdaşlarımızın yanına qayıdanda dostlarım sevindilər. Ancaq bu sevinc uzun çəkmədi. Ermənilər Naxçıvanik istiqamətindən üstümüzə hücuma keçmişdilər. Bizim hərbi hissə onlara layiq olduqları cavabı verməliydi. 1992-ci il mart ayının 12-də müdafiə, gözləmə mövqeyindən çıxıb hücuma keçdik. Düşmən tərəfi çoxlu canlı qüvvə itirdi…", - deyə xatirələrinin sonuna üç nöqtə qoymuşdu...

### Əbədiyyətə yazılan son sətirlər

Bu gün Milli Qəhrəman Elgiz Kərimovun gündəliyində yazdıqlarını oxuyanda insanı qəribə bir hiss bürüyür. Görürsən ki, 1992-ci il martın 12-də yazılmış o son sətirlərdən sonra gələn ağ vərəqlər, əslində, yazılmamış bir dastandır. O vərəqlər Elgizin canı bahasına xilas etdiyi yoldaşlarının ömrüdür, bu gün Bərdədə, Bakıda, Şuşada, Xankəndidə azad gəzən insanların taleyidir.

Bəli, martın 12-si artıq təqvimdə, sadəcə, bir gün deyil. O, bir gəncin qələmi yerə qoyub silahı götürdüyü, yarımçıq qalmış cümlələrini şəhidliyi ilə tamamladığı gündür. Gündəliyin son səhifəsindəki o boş sətirləri biz indi hər gün azadlıqla, zəfərlə və qürurla yazırıq. Çünki Elgiz Kərimov kimi oğullar ölmürlər, onlar, sadəcə, vaxtı gələndə xatirələrdən çıxıb əfsanələrə çevrilirlər.

Ruhun şad olsun, xalqımın mərd oğlu!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Baş ofis və struktur idarələrinə kartriclərin satın alınması məqsədilə *açıq tender elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 mart 2026-cı il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***


# Ermənistanda hökumət-kilsə gərginliyi dərinləşir

**Ermənistanda hakimiyyətlə kilsə arasında gərginlik artıb. Qarşıdurma artıq daha kritik mərhələyə daxil olub. Belə ki, Erməni Apostol Kilsəsinin rəhbəri Katolikos II Qareginə qarşı cinayət işi açılıb, onun ölkədən çıxışına qadağa qoyulub. Bu isə müxalif və revanşist çevrələrdə ciddi narazılıqlar yaradıb.**

Əgər cinayət işi açılıbsa, deməli, II Qareginin həbs olunması ehtimalı yüksəkdir. Ancaq ekspertlərin fikrincə, baş nazir Nikol Paşinyan hələlik buna qarşı çıxacaq. Çox güman ki, katolikosun həbsi qarşıdakı parlament seçkilərindən və yeni konstitusiyanın qəbulundan sonra gündəmə gətiriləcək.

II Qaregin və onun ətrafında toplaşanlar bölgədə gərginliyin davam etməsində maraqlı olan, Ermənistanın qonşu Azərbaycan və Türkiyə ilə barışmasına qarşı çıxan revanşistlərdir. Onlar erməni cəmiyyətində düşmənçilik və nifrət dolu çağırışlarla çıxış edir, sülhə qarşı çıxırlar.

Emənistanın yeni konstitusiyasında kilsənin ölkənin ictimai-siyasi həyatına təsir imkanlarının məhdudlaşdırılması nəzərdə tutulur. Bu barədə artıq ilkin mesajlar da verilib. Başqa sözlə desək, Paşinyan kilsənin cəmiyyətdəki konstitusion mövqeyini aradan qaldırmağa çalışır.

Xatırladaq ki, Nikol Paşinyan katolikosu subaylıq andını pozmaqda, dinin nüfuzuna xələl gətirən davranışlarda və müxtəlif qalmaqallarda ittiham edib. Paşinyan hətta bu yaxınlarda II Qaregini rəsmi dini titulu ilə də deyil, dünyəvi adı, yəni Ktriç Nersisyan kimi çağırıb. O bildirib ki, "II Qaregin" adı da ondan alınmalıdır.

Ümumiyyətlə, II Qaregin Azərbaycan və Türkiyəyə qarşı işğalçı baxışları ilə tanınır. O, dəfələrlə tarixi faktları təhrif edən, düşmənçilik ruhunu qızışdıran fikirlərlə gündəmə gəlib. Ermənistan cəmiyyətində xalqımıza qarşı formalaşdırılmış şovinist təbliğatın əsas simalarından biri kimi də məhz katolikos göstərilir. Ktriç Nersisyan, sadəcə, regionda sülh təşəbbüslərinə qarşı çıxmır. Eyni zamanda o, Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edir, uydurma "erməni soyqırımı"nın beynəlxalq miqyasda yayılması üçün təbliğat aparır. Əlbəttə, bu düşüncə Cənubi Qafqazda sülhə və sabitliyə yönələn proseslərə ziddir.

Uzun illər kilsə erməni cəmiyyətinə təsir edib. Kilsə Azərbaycana qarşı işğalçılığı dəstəkləyib və bu gün də sülhə qarşı çıxır. Nikol Paşinyan hökuməti isə Ermənistanı yeni qaydalarla inkişaf etdirmək istəyir. Bu planda II Qaregin üçün yer yoxdur. Paşinyanın sözlərinə görə, Apostol kilsəsinin yenilənməyə və dəyişməyə ciddi ehtiyacı var.

Onu da qeyd edək ki, 2026-cı ilin yayına, parlament seçkilərinə qədər Paşinyan bu problemi həll etmək niyyətindədir. Görünən odur ki, o, əgər yenidən Ermənistan hökumətinə rəhbərlik etməyə başlasa, xeyir-duanı yeni katolikosdan almaq niyyətindədir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Hava əsasən yağmursuz keçəcək, bəzi yerlərdə duman olacaq

**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-5, gündüz 7-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 775 millimetr civə sütunundan 772 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə az yağıntılı olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 7-12 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacağı ehtimal edilir.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**



**"Nardaran INVEST" MMC-yə (VÖEN: 1401113871) məxsus Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri fəaliyyətinə dair İN/L-187/2018 qeydiyyat nömrəli 26.02.2018-ci il tarixli lisenziya və İN/L-187/2018/1 qeydiyyat nömrəli 26.02.2018-ci il tarixli lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır.**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Lətif Cahangirova əmisi

**NİZAMİ CAHANGİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini Anar Kərimova əzizi

**ETİBAR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3369
Sifariş 345

Qiyməti 60 qəpik